www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Gənc yazarın e-kitabı”

Roma Xosrov

Yat, yuxuna qonaq gəlim

(Şeirlər toplusu)

İstedadlı gənc şair, dövri mətbuat və İnternet portallarında poetik-ədəbi yazıları ilə müntəzəm çıxış edən Roma Xosrovun növbəti e-kitabı...

2012

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU. E-NƏŞR N 23 (125 - 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 23

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Azərbaycan Gənclər Fondu:

http://youthfoundation.az

Roma Xosrov

Yat, yuxuna qonaq gəlim

Roma Xosrov(Roma Xosrov oğlu Ağayev) 23 iyul 1989-cu ildə Laçın rayon Alxaslı kəndində doğulub. 2006-cı ildən dövrü mətbuatda mütəmadi olaraq məqalə, hekayə, esse və şeirləri işıq üzü görür. 2008-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sənətşünaslıq" fakultəsi Teatrşünaslıq ixtisasına daxil olub. 2009-cu ildə "Şirvannəşr"də "Məhəbbətə baş əyirəm" sərlövhəli ilk şeirlər kitabı, 2010-cu ildə "MBM"(Min Bir Mahnı) MMC nəşriyyatında "Yat, yuxuna qonaq gəlim" sərlövhəli ikinci şeirlər kitabı işıq üzü görüb. Bu e-kitab Roma Xosrovun oxucuları ilə artıq ikinci görüşüdür. "Yat, yuxuna qonaq gəlim" şeirlər toplusunu oxuyan hər bir kəs müəllifin fəlsəfi dünyasına, məhəbbət gəmisində əlində satira qılıncı ilə səyahət edib, qəlbində vətənpərvərlik eşqi ilə alışıb yanacaq.

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2012 e-nəşri N 23 (125 - 2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Roma Xosrov

Yat yuxuna qonaq gəlim

(Şeirlər toplusu)

Bakı,"MBM", 2010, 160 s.

Roma Xosrov (Roma Xosrov oğlu Ağayev) 23 iyul 1989-cu ildə Laçın rayon Alxaslı kəndində doğulub. 2006-cı ildən dövrü mətbuatda mütəmadi olaraq məqalə, hekayə, esse və şeirləri işıq üzü görür. 2008-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sənətşünaslıq" fakültəsi Teatrşünaslıq ixtisasına daxil olub. 2009-cu ildə "Şirvannəşr"-də "Məhəbbətə baş əyirəm" sərlövhəli ilk şeirlər kitabı, 2010-cu ildə "MBM"(Min Bir Mahnı) MMC nəşriyyatında "Yat yuxuna qonaq gəlim" sərlövhəli ikinci şeirlər kitabı işıq üzü görüb.

Bu kitab Roma Xosrov-un oxucuları ilə artıq ikinci görüşüdür. "Yat, yuxuna qonaq gəlim" şeirlər toplusunu oxuyan hər bir kəs müəllifin fəlsəfi dünyasına, məhəbbət gəmisində əlində satira qılıncı ilə səyahət edib, qəlbində vətənpərvərlik eşqi ilə alışıb yanacaq.

HƏSRƏT QALAR ÖLÜM SƏNƏ

Şirin canım qurban olsun,

Peşkəş edim gülüm sənə.

Sən əvəzdən mən ölərəm,

Həsrət qalar ölüm sənə.

Dodağımın sözü sənsən,

İç dünyamın gözü sənsən,

Ürəyimin özü sənsən,

Edərəmmi zülüm sənə.

Görsən əgər yağış yağır,

Çətirinəm məni çağır,

Gülüm axı güldən ağır,

Söz deyərmi dilim sənə!

QIZIM UTANIRAM KƏNDƏ QAYITMA

Bu nə vid-fasondur eyibdir, eyib,

Qızım utanıram kəndə qayıtma.

Avropanın cırıq şalvarın geyib,

Qızım utanıram kəndə qayıtma.

Pəhriz saxlamağın qəlbini dəlib,

Acından ölürsən belin incəlib,

Qara gözlərinə yaşıllıq gəlib,

Qızım utanıram kəndə qayıtma.

Şəhərə gedəndən olmusan gəlin,

Qoyunun yunu tək qıvrılıb telin,

Russan, azərisən bilinmir dilin,

Qızım utanıram kəndə qayıtma.

Yanağın böyüyüb, dodağın şişib,

Zaqar eyləmisən dərin dəyişib,

Sırqan da burnuna gəlib ilişib,

Qızım utanıram kəndə qayıtma.

Açıqdı kürəyin, açıqdı sinən,

Bu qədər də çılpaq gəzərmi zənən?

Beləmi geyinib əvvələr nənən?!

Qızım utanıram kəndə qayıtma.

29 04 2010

MƏNİM EŞQİM ÖLƏN DEYİL

Ürək eşqin səndən özgə,

Yad biriylə bölən deyil.

Başqa birin sevsə belə,

Dəyərini bilən deyil.

Adım gəzir eldən-elə,

Sözüm düşüb dildən-dilə,

Özüm bir gün ölsəm belə,

Mənim eşqim ölən deyil.

Ömrüm sənlə çox nəşəli,

Lalə, nərgiz, bənövşəli,

Qəlbimdəki eşq məşəli,

Alovlanıb sönən deyil.

08 07 2009

AĞLIM BAŞDAN ÇIXAN KİMİ

Sürünürəm haqqa doğru,

Su səmtinə axan kimi.

El bir olsa yıxa bilməz,

İnsan özün yıxan kimi.

Alnıma qırış düzülür,

Günlər ömürdən üzülür,

Ürəyimdən dərd süzülür,

Dünya məni sıxan kimi.

Haqqı seçdim mən qibləgah,

Dua etdim axşam, sabah.

Bu dünyadan köçəm Allah,

Ağlım başdan çıxan kimi.

02 28 2009

BAĞIŞLA

Məni sənə verdiyim

İllərimə bağışla.

Telinə sığal çəkən,

Əllərimə bağışla.

Qəlbimi sıxıb gedən,

Dünyamı yıxıb gedən,

Gözümdən axıb gedən,

Sellərimə bağışla.

Sevə-sevə dərdiyim,

Dərib sənə verdiyim,

Sinən üstə sərdiyim,

Güllərimə bağışla.

ARZULAR BEZİB DAHA

Arzularım yol boyu,

Düzülüb qatar-qatar.

Arzular bilet alsa,

Özün vaqondan atar.

Yer qalmayıb qatarda,

Ayaqda getsin gərək.

Arzuma yer verməyə,

Heç kəsdə yoxdur ürək.

Qol çəkib intihara,

Əlin atıb silaha.

Qəsd edəcək özünə,

Arzular bezib daha.

21 12 2009

SEVGİ NƏ OLDUĞUN HARDAN BİLƏSƏN

Yandırmayıb vücudunu eşq odu,

Sevgi nə olduğun hardan biləsən.

Eşq sərxoşu, olmamısan sən hələ,

Sevgi nə olduğun, hardan biləsən.

Bir gecə yarısı, qəfil duraraq,

Şirin xatirələr varaqlayaraq,

Sən ki, qalmamısan, sübhəcən oyaq,

Sevgi nə olduğun, hardan biləsən.

Allahın hökmüylə döyünən ürək,

Ətrafa nur saçsın, əməldə gərək,

Səndəki o ürək, deyilsə kövrək,

Sevgi nə olduğun, hardan biləsən.

Məhəbbət kamanı çalırsa pəsdə,

Nə səndə günah var, nə qeyri kəsdə,

Axmayıb göz yaşın, yastığın üstə,

Sevgi nə olduğun, hardan biləsən.

GECƏ QƏLƏM ƏLİNDƏYƏM

Qəlbimdə ildırım çaxır,

Buludların selindəyəm.

Aldatmasın təqvim sizi,

Mənən adam ilindəyəm.

Ömrümün hər qarışında,

Ağıl, ürək savaşında,

Səhərlər söz yarışında,

Gecə qələm əlindəyəm.

Bir kitabdır saf ürəyim,

Şeirlərim gələcəyim,

Tərcüməyə yox gərəyim,

Doğma ana dilindəyəm.

03 01 2010

BAŞIM BƏLALIDIR, DİLİM BƏLALI

Vətənsiz alışıb, elə yanmışam,

Ocağım bəlalı, külüm bəlalı.

Ay Allah! vətənsiz yaşamaqdansa,

Yaşayım bəlalı, ölüm bəlalı.

İntizardan, açmır lalə, qızılgül,

Yoxdur zəmilərdə, bir sarı sünbül,

Ağlayır, şövq ilə oxumur bülbül,

Çiçəyim bəlalı, gülüm bəlalı.

Bu qərib dünyaya, gəldiyim gündən,

Mən vətəndən ayrı, vətənsə məndən,

İllərdir baxıram, dağlara gendən,

Əsrim bəlalıdır, ilim bəlalı.

Boş qalıb torpağım, daha əkilmir,

Talanıb dağılır, evlər tikilmir,

Vətənim üstündən, bulud çəkilmir,

Yurdum bəlalıdır, elim bəlalı.

İllər ötüb keçir, zamanım dolmur,

Bənizim solsa da, ürəyim solmur,

Demirəm ölürəm, deyirəm olmur,

Başım bəlalıdır, dilim bəlalı.

28 02 2009

AĞLAYA-AĞLAYA QALDIM BU GECƏ

Əlimlə bağlayıb eşqin otağın,

Üfürüb söndürdüm yanar çırağın.

Dərdimlə bəzədim həsrət yatağın,

Yerimi səssizcə saldım bu gecə,

Ağlaya-ağlaya qaldım bu gecə.

Yoluna göz dikib boynumu bükdüm,

Bu qərib könlümü canımdan sökdüm,

Bütün şəkilləri qarşıma tökdüm,

Ətrini rəsmindən aldım bu gecə,

Ağlaya-ağlaya qaldım bu gecə.

Hicran xəlbirində kədər ələdim,

Allaha yalvarıb dözüm dilədim,

Həm şeirlər yazdım, həm bəstələdim,

Ayrılıq havası çaldım bu gecə,

Ağlaya-ağlaya qaldım bu gecə.

18 03 2010

AĞLAYACAQ ŞERİM MƏNİ

Əqidədə bir bilibdir,

Kəbə adlı pirim məni.

Səbr Allahın adıdırsa,

Tərk eləməz səbrim məni.

Soyuq oldu tez girirdim,

Ürəklərdə isinirdim,

Elə ki mən qəbrə girdim,

İsidəcək qəbrim məni.

Mən öləndə nə qəm mənə,

Yanmayacaq aləm mənə,

Yas tutacaq qələm mənə,

Ağlayacaq şerim məni.

08 04 2009

KAĞIZLARA HOPMUŞAM

Yenə təkəm bu axşam,

Dörd divar arasında.

Təklik cığır salıbdı,

Gözümün qarasında.

Söndürmüşəm işığı,

Bu qaranlıq otaqda.

Qapanmışam özümə,

Bir dar küncə-bucaqdayam.

Sağ əlimdə qələmim,

Kağız dizim üstədir.

Ölübdü ilham pərim,

Təbim çoxdan xəstədir.

Nurlu dünyam var mənim,

Qaranlıqdan qopmuşam.

Misra-misra bölünüb,

Kağızlara hopmuşam.

01 10 2010

“Ən böyük biclik doğru danışmaqdır”

aforizminə istinadən

İTİRİRƏM

Nə bilsinlər sevgi nədir,

Məni görən min naz edir,

Vaxt gözləmir, ömür gedir,

Gəncliyimi itirirəm.

Dopdoludur kədər rəfim,

Öz canıma yoxdur nəfim,

Sızıldayır hər tərəfim,

Dincliyimi itirirəm,

Göz yumanda düzə hər kəs,

Yalan sözə gəlir həvəs,

Ona görə ən müqəddəs,

“Bicliyimi itirirəm”.

10 04 2009

TİTRƏYİR ÜRƏYİM KÜLƏKDƏN BETƏR

Qoparıb köksümdən al əllərinə,

Sən mənə gərəksən ürəkdən betər.

Eşqin ilə ləçəkləyən üzümü,

Həsrətin soldurub çiçəkdən betər.

Həsrətin yay kimi qəddimi əyir,

Artıq nə söyləsən qəlbimə dəyir,

Ağaran tellərim una bənzəyir,

Ürəyim olubdur ələkdən betər.

Düzmü qoyulmayıb bu eşqin himi?!

Qırıldı qəlbimin məhəbbət simi,

Tənha otağımda bir yarpaq kimi,

Titrəyir ürəyim küləkdən betər.

ÜRƏKDƏN GÜLƏ BİLMİRƏM

Ölüm Allahın əmridir,

İstəsəm ölə bilmirəm.

Nə vaxt dünyadan köçəcəm,

Bir onu bilə bilmirəm.

İşləmir heç solum, sağım,

Sınıbdı qolum budağım,

Baxma ki qaçır dodağım,

Ürəkdən gülə bilmirəm.

Qəlbimin sözü yazılır

Doğrusu, düzü yazılır,

Gələcək özü yazılır,

Keçmişi silə bilmirəm.

17 03 2010

VƏSİYYƏT

Ürəyim söz sənayesi,

Üç barmaqdı, iş maşınım.

Kağız materialımdı,

Qələmim tikiş maşınım.

Sinəm sual kitabçası,

Müxtəlifdi mövzuları.

İmtahandan çox kəsilib,

Qəlbimin saf arzuları.

Ölsəm, budur vəsiyyətim,

İstəsən ruhum sevinə.

Oxunmayan şeirimi,

Verin yetimlər evinə.

13 12 2009

YAŞA ADAM GÜNÜNDƏ

Oyunmu oynayırsan?

Göydəki Allah ilə.

Bəs deyilmi keçirdin,

Ömrünü günah ilə.

Bu dünya Allahındı,

Sən onun evindəsən.

Hər hara qaçsan belə,

Allahın əlindəsən.

Nə qaç, nə də ki gizlən,

Əmələin göz önündə.

Gəlmisən adam kimi,

Yaşa adam günündə.

17 05 2010

AĞIR GƏLİR TEL BAŞIMA

Göz yaşlarım buza dönüb,

Yığışıbdı sel başıma.

Donur qəlbim qarın altda,

Buz bağlayır yel başıma.

Sandım əhdə sadiq səni?!

Qəlbimdi eşqin vətəni,

Dəli edib sevgin məni,

Xarab deyir el başıma.

Saçlarıma qar ələnib,

Bədənimə od bələnib,

Boğazıma dərd dirənib,

Ağır gəlir tel başıma.

HAMI ƏSƏB XƏSTƏSİDİR

Kimi ədəbsizlik edir,

Kimi ədəb xəstəsidir.

Səbri qalmayıb heç kimin,

Hamı əsəb xəstəsidir.

Qış fəsli də sanki yazdı,

Paltar geyən qadın azdı,

Qız uşağı modabazdı,

Gənc yaşda dəb xəstəsidir.

Üç sirdaşım var hər axşam,

Kağız, qələm, bir də ki şam,

Sanmayın mən qəlbi daşam,

Şair də təb xəstəsidir.

09 05 2010

AQİLİ SÖZÜNDƏ KARLI GÖRMÜŞƏM

Namusun, vicdanın itirən kəsi,

Nabələd yanında arlı görmüşəm.

Özgə hesabına dağa bənzəyən,

Çox təpə başını qarlı görmüşəm.

Dostunun malını eyləyib talan,

Əğyara can deyib qeydinə qalan.

Kasıbın əlindən çörəyin alan,

Çox qeyrətdən kasıb varlı görmüşəm.

Mənəm söz bağından gül, çiçək dərən,

Dərib o çiçəyi qəlblərdə sərən,

Nadandır qolunun gücün göstərən,

Aqili sözündə karlı görmüşəm.

ÜZ ÇEVİRİR ÜRƏK MƏNDƏN

Yağan leysan azmış kimi,

Əsib keçir külək məndən.

Nə etsəm də öz əməlin,

Uzaq etmir fələk məndən.

Səni sevdim batdım aha,

Dönük çıxdım mən Allaha,

Çiynim üstə yoxdur daha,

Uzaqlaşıb mələk məndən.

Hicransa bu eşqin sonu,

Necə gedim mən bu yolu?!

Ağlım deyir sevmə onu,

Üz çevirir ürək məndən.

18 04 2009

ADI DOST OLANIN QAPISIN DÖYMƏ

Allah nə veribsə alar əlindən,

Sən ona köləsən özünü öymə.

Sənin də məzarda yatanların var,

Qarşına çıxanın ölüsün söymə.

Bizləri əfv edən yaradan ki var,

Bağlı qapıları bir gün də açar,

Mətin dayanmağı, durmağı bacar,

Heç kimin önündə qəddini əymə.

Sirrini söyləmə söz sirdaşına,

Aranız dəyərsə qaxar başına,

Özü dost olanın dön qardaşına,

Adı dost olanın qapısın döymə.

31 10 2009

TOYUQDU BU

Güllə atsan oyanmaz,

Nə yaman sayıqdı bu.

Səhərlər gözü görmür,

Hər gecə ayıqdı bu.

Küsdürərsən barışmaz,

Bir işinə qarışmaz,

Söy üzünə danışmaz,

Sanki bir oyuqdu bu.

Rüşvət tutubdur gözün,

Eşidən yoxdur sözün,

Gördü güzgüdə özün,

Qorxudan bayıqdı bu.

Bir kəsə etməz xətər,

Xox etsən o da yetər,

Arxanca dil-dil ötər,

Qarşında toyuqdu bu.

Görən yox istedadın,

Hər gün dəyişir adın,

Gah kişidir, gah qadın,

Yelkənsiz qayıqdı bu.

Bu ki ölübdür Allah,

Danladım etdim günah,

Gedib rəhmətə vallah,

Buz kimi soyuqdu bu.

17 05 2010

ÜRƏK SƏNDƏN UZAQDA

İmandan etdin məni,

Qaldım dindən uzaqda.

Ruhum sənlə gedib,

Gəzir məndən uzaqda.

Qəm ürəkdə solaydı,

Sevgi qəlbə dolaydı,

Kaş dünyada olaydı-

Sevən qəmdən uzaqda.

Həsrətəm xoş sabaha,

And içirəm Allaha,

Yaşaya bilmir daha,

Ürək səndən uzaqda.

01 12 2009

DÖZÜMLÜSƏN EŞŞƏK KİMİ

Səmtin bilinmir haradır,

Hey əsirsən külək kimi.

Haram çörək həzm etməkdən,

Südlənmisən inək kimi.

Qarnın yaman toxdu sənin,

Canında piy çoxdu sənin,

Bir palanın yoxdu sənin,

Dözümlüsən eşşək kimi.

Yaşa pulçün, əmək üçün,

Üzün var söz demək üçün?

Sümük tapıb yemək üçün,

Sülənirsən köpək kimi.

03 05 2010

TƏNHA QALMAQ İSTƏMİRƏM

Eşqə aid sətirləri,

Yerə salmaq istəmirəm.

Sevgidə hicran havasın,

Sazda çalmaq istəmirəm.

Dərd satıram qiymət baha,

Bu yollarda düşdüm aha,

Ürəyimə yükdü daha,

Sevgi almaq istəmirəm.

Odu sönən ocağımda,

Zülmət dolu otağımda,

Bu dünyanın qucağında,

Tənha qalmaq istəmirəm.

24 10 2009

YENƏ DOLUB ÜRƏYİM…

Yenə dolub ürəyim,

Göydəki bulud kimi.

Məni məndən qoparıb,

Xəyal adlı bir gəmi.

Yenə dolub ürəyim,

Öz dünyama gedirəm.

Yalandan uzaq olan,

Düz dünyama gedirəm.

Yenə dolub ürəyim,

Kağız, qələm gətirin.

Qəmli gözəl yazıram,

Mənə ələm gətirin.

20 04 2010

BALALI ARZULAR

Bu gün qız olan arzum,

Sabah gəlin olacaq.

Bəlli deyil nə zaman,

Arzum arzu doğacaq.

İndi hamilə qalıb,

Sevgi dolu axında.

Ana olmaq istəyir,

Yetirəcək yaxında.

Bala saldı yenə də,

Doğmadı məhəbbəti.

Əkiz doğdu bu gün də,

Ürəyimdə həsrəti.

23 03 2010

AÇ QƏLBİNƏ ADIMI YAZ

Çox bəlalar çəkdi başım,

Qınaq oldum el içində.

Görən kimi səni sevdim,

Yüz ətirli gül içində.

Yetər daha etdiyin naz,

Aç qəlbinə adımı yaz,

Saçım tamam olub bəyaz,

Sənsiz bircə il içində.

Ağlım çaşıb nə danışım,

Gözlərimdən axır yaşım,

Silməyə yoxdur sirdaşım,

Boğuluram sel içində.

Səni sevər mən qədər kim?!

Ürəyində güllər əkim,

Qoy saçına sığal çəkim.

İzi qalsın tel içində.

09 08 2009

ANAN, BACIN YOXDU SƏNİN?

Qız, gəlinə söz atırsan,

Anan, bacın yoxdu sənin?

Bu yollamı baş qatırsan,

Anan, bacın yoxdu sənin?

İtkin düşüb üzündə ar,

Bu xəstəlik, bu bir azar,

Əməlindən utan, qızar,

Anan, bacın yoxdu sənin?

Qamətini çox tutma şax,

Öz səhvini başına qax,

Dön arxaya evinə bax,

Anan, bacın yoxdu sənin?

Yol gedəndə saxla qəti,

Ağzında yüz qıram əti,

İtirmisən lap qeyrəti,

Anan, bacın yoxdu sənin?

Qız sumkası dəyir başa,

Tanınırsan yaşa-yaşa,

Görənlər edir tamaşa,

Anan, bacın yoxdu sənin?

Qarşına çıxar bir kişi,

Udar qoyub tökər dişi,

Unut daha bu vərdişi,

Anan, bacın yoxdu sənin?

Fəxr edirsən gör necədə,

Heç nə almırsan vecə də,

Yüz faiz qalır küçədə,

Anan, bacın yoxdu sənin.

14 05 2010

BİR İNQİLAB EDƏCƏYƏM

Dünən səhər çıxıb getdi,
Dedim gecə gələr yəqin.
O gündən geri dönməyib,
Sanki itkin düşüb təbim.

Ağ qalıb masamda kağız,
Sağ əlimdə donub qələm.
Hislərim də yolun azıb,
Boş qalıbdı dolu sinəm.

Təbimsiz çox darıxıram,
Bir inqilab edəcəyəm.
Təbim geri qayıtmasa,
Mən dalınca gedəcəyəm.

20 12 2009

SÜLH

Neçə ildir Qarabağın,
Sahibsizdir örüşləri.
Efirlərə bəzək vurur,
Saxta səfir gülüşləri.

Nəyə gərək sülh məramlı,

Qarğa, quzğun görüşləri.

Səfər boyu tərəflərin,

O mənasız öpüşləri.

Arvad-uşaq savaşıdır,

Yoxdur igid döyüşləri.

Bəlkə bizə adi gəlir!,

Ana, bacı söyüşləri.

09 01 2010

LƏKƏ DÜŞƏR SÖZÜM ÜSTƏ

Dünya! səndən mən cavanam,

Yıxılmaram dizim üstə.

Ürəyimlə gəl oynama,

Ləkə düşər sözüm üstə.

Kipriklərim bir yük kimi,

Sıralanıb gözüm üstə.

Pozulub alnımda yazım,

Dərd yazılıb üzüm üstə.

Yolumamı göz dikmisən?!

Durma əbəs izim üstə.

Haqq yolunda alışıram,

Ağlamayın közüm üstə.

30 12 2009

SÖZDƏN ANLAMAZ

Dünyada kef çəkən, həsrət çəkənin,
Dərdini baxmaqla, üzdən anlamaz.
Nifrəti qəlbində cəm olan nadan,
Sevginin varlığın, gözdən anlamaz.

Eyni din əhliyik, müxtəlif rolda,
Kimisi sağdadır, kimisi solda,
Allahın cızdığı müqəddəs yolda,
Əyridən yapışan, düzdən anlamaz.

Az deyil həqiqət şərbətin içən,
Yaxşını, yamandan ayırıb seçən,
Şeir fəlsəfədir hər yoldan keçən,
Şairin yazdığı, sözdən anlamaz.

ADAM OLMAQ ÇƏTİN İŞDİ

Qoca yaşını gizlədir,
Cavanların arasında.
Mərd əzilir, mərd sıxılır,
Nadanların arasında.

Təbim coşqun bir arazdı,
Ömür yolum hələ yazdı,

Bu dünyada adam azdı,

İnsanların arasında.

Sinəm üstə dərd ilişdi,

Dar qəfəsdə ürək bişdi,

Adam olmaq çətin işdi,

Yamanların arasında.

24 12 2009

ÖLMƏK İSTƏYİRƏM...

Eşqə düşən bu ləkəni,

Öz əlimlə, öz alnıma,

yaxıb, ölmək istəyirəm.

Addım-addım ayaqyalın,

Bu sevginin dərgahına,-

çıxıb, ölmək istəyirəm.

Dünyam olsa lap necə də,

Yol getdiyin o küçədə,

Yağış yağan bir gecədə,

Şimşək kimi öz qəlbimə,-

çaxıb, ölmək istəyirəm.

Öz-özümlə tənha qalıb,

Hey xəyala, fikrə dalıb,

Sevgi yolun yada salıb,

Öz səhvimi, öz başıma,-

qaxıb, ölmək istəyirəm.

Elə günə qalıb inan,

Səni sevən bax bu oğlan,

Qəlbimdəki sənsiz olan,

Sevgi adlı öz binamı,-

yıxıb, ölmək istəyirəm.

Birləşməmiş ət sədəfə,

Tuş gəlmişəm bir hədəfə,

İcazənlə mən son dəfə,

O mənalı gözlərinə,-

baxıb, ölmək istəyirəm.

Fərəhlənib azca öyün,

Aldığım nişan üzüyün,

Qara lentlə sıxıb bu gün,

Bir ağacın budağına,-

taxıb, ölmək istəyirəm.

Sən ki məni heç sevmirsən,

İnciməsin ruhum məndən,

Həsrətindən alnıma mən,

Darax dolu bir silahı,-

sıxıb, ölmək istəyirəm.

17 04 2009

ALLAH HƏR İNSANIN ÖZ İÇİNDƏDİR

İstəyən izləyib sınayar məni,

Əqidəm, əməlim düz içindədir.

Yoluma baxan kəs tanıyar məni,

Əqidəm getdiyim iz içindədir.

Çəməndə gül-çiçək ətir qoxuyur,

Bülbül həvəslənib nəğmə oxuyur,

Qələmim kağıza misra toxuyur,

Şairəm ürəyim söz içindədir.

Hər zaman öndə get xeyirdə, şərdə,

Çarə tapmasanda şərik ol dərdə,

Nə göydə axtarın, nə də ki yerdə,

Allah hər insanın öz içindədir.

18 02 2010

SİQARET

Çəkirsən sinənə ağ ciyərini,

Bürüyür tərkibi zəhər siqaret.

Yandıqca tütünün qara tüstüsü,

Salır boğazına qəhər siqaret.

Azarı tutubdu bütün hər kəsi,

Bir addım yol getsən kəsir nəfəsi,

Axırda olursan vərəm xəstəsi,

Verməyib insana bəhər siqaret.

Sonsuzluq yaradır doğulmur uşaq,

Həsrət qalır ata övlada nahaq,

Elə bil dərmandır yeməkdən qabaq,

Qoyursan damağa səhər siqaret.

29 08 2010

AĞ KAĞIZ

Ay təbinə kölə olan,

Ağ kağızın nə günahı.

Üzərinə tuşlayırsan,

Qələm adlı bir silahı.

Qara ləkə gizlədəndi,

Ağ ləkəsi üzə çıxır,

Bilirsənmi ağ kağızın?!

Şərəfini qələm yıxır.

Ağ kağıza vurulmuşam,

Sözüm düşmür ağızlardan.

Utanıram ləkə düşən,

Alnı açıq kağızlardan.

29 12 2009

BAĞIŞLA MƏNİ

Xatirədən başqa sənlə bağlı,

Qalmayıb heç nəyim, bağışla məni

Əlimi əlindən üzüb getmişəm,

Bağışla mələyim, bağışla məni.

.

Göy üzündə çaxan şimşək olmusan,

Həsrətdən bulud tək yaman dolmusan,

Xətrinə dəymişəm bu gun solmusan,

Bağışla çiçəyim, bağışla məni.

Hakim çıxmayaraq gülüm nəfsimə.

Salmışam mən səni çətin tilsimə,

Bu sevgidir, gücüm çatmır hissimə,

Bağışla ürəyim, bağışla məni.

SAĞIMA BAXIRAM, SOLUM GÖRÜNMÜR

Yaxşı əməlimlə imza yaratdım,

Amma ki nə edək qolum görünmür.

Artistlik etmirəm bu dünyada mən,

Onunçün həyatda rolum görünmür.

Suallar yaradır dünya insanda,

Görəsən nə üçün axı bir anda,

İzimin üstündən keçən olanda,

Nə qədər axtarsam yolum görünmür.

Uyuyan olmadı dünya qolunda,

İstəyir sağında, ya da solunda,

Mən hərdən həyatın bu dar yolunda,
Sağıma baxıram, solum görünmür.

07 04 2009

BAKIYA QAR YARAŞMIR

Bakıya qar yaraşmır,

Nəzər dəyir ölkəmə.

Sanki sönəcək indi,

İşıq göz vurur mənə.

Bakıya qar yaraşmır,

Qəza olur gör neçə.

Qar qarışır çəmənə,

İtirir rəngin küçə.

Bakıya qar yaraşmır,

Buz özün göydən asıb.

İş olmur qar yağanda,

Evdə ac qalır kasıb.

Bakıya qar yaraşmır,

Sakinlər susuz qalır.

İçməli suyu belə,

İnsan pul verib alır.

Bakıya qar yaraşmır,

Qaz verilmir dünəndən.

Barmek kəsir işığı,

Elə qar yağan gündən.

Bakıya qar yaraşmır,

Bakı dağ deyil axı.

Bakı dağ ola bilməz,

Alıncan Qarabağı.

SEVMƏDİN Kİ ÖZÜN MƏNİ

Sevən qəlbə yox demisən,

Küsdürübdü sözün məni.

Ay alovu sönən eşqim,

Hey yandırır közün məni.

Biz yolçuyuq, həyat yoldu,

Yolda qaldı kim yoruldu,

Məni sevən dilin oldu,

Sevmədin ki özün məni.

Nə biləydim sən bir heçdin,

Doğman qaldı, yadı seçdin,

Düz yanımdan ötüb keçdin,

Görmədimi gözün məni?!

06 15 2009

ARXAMCA HÜRƏN İT

Arxamca hər gün hürən it,

Qarşımda quyruq bulama.

Bəsdi keçdin sağ, soluma,

Tutursansa tut ulama.

Nə sözün var özümə de,

Bax gözümə, düzünə de,

Dirimi tap üzünə de,

Ölümü qəbrdə sulama.

Çörək atım qarşına mən,

Qapımda ol, bir itə tən,

Adam ola bilmədin sən,

Heyf o haqqı salama.

24 05 2010

ŞAİRƏM, YALTAQ DEYİLƏM

Mənə sual verib soruşma niyə?

Kələyə getmirəm, nə də ki, küyə,

Adam tək dözürəm hər çətinliyə,

Çünki sən bildiyin sayaq deyiləm.

Ayıl cəhalətdən bir daha yatma,

Rüşvətə aldanıb, vicdanı satma,

Bir şirin konfetlə başımı qatma,

İyirmi yaşım var uşaq deyiləm.

Neçə ki məndədir bu ağıl, bu baş,

Qoya bilməyəcəm daş üstünə daş,

Yerimdə sayacam hər zaman qardaş,

Çünki mən şairəm, yaltaq deyiləm.

13 02 2009

SEVDİRƏCƏK SÖZÜM MƏNİ

Yüz hiylə qur yıxılmaram,

Yıxsa yıxar özüm məni.

Mən neçə ki, yaşayıram,

Yolda qoymaz dözüm məni.

Yaş çoxalır gedir ömür,

Torpaq mənə qəbir hörür,

Necə varsa elə görür,

Aldatmayır gözüm məni.

Sətirlərim gün gələcək,

Könülləri fəth edəcək,

Elə ki söz seviləcək,

Sevdirəcək sözüm məni.

14 04 2009

SƏNƏ QURBAN ÖZÜM DAĞLAR

Səndə olan gözəlliyə,

Baxmağa yox üzüm dağlar.

Utanıram söz deməyə,

Çox olsa da sözüm dağlar.

Bir igidin ömrü qədər,

Ayrı qaldıq, daha yetər,

Ömür gedir bomboş hədər,

Sənsiz necə dözüm dağlar.

Ürəyə qəm hörməkdənsə,

Belə ömür sürməkdənsə,

Dar gününü görməkdənsə,

Kor olaydı gözüm dağlar.

İlk sevgimin sənsən himi,

Qəlbimin də sınıb simi,

Bir qurbanlıq qoyun kimi,

Sənə qurban, özüm dağlar.

23 02 2009

ALLAH ƏMANƏTİ

Ruhum çıxır bədənimdən,

Özüm, Allah əmanəti.

Bu dünyadan doyub gedən,

Gözüm, Allah əmanəti.

Gələcəyə işıq saçdım,

Pis əməldən kənar qaçdım,

Haqq evinə cığır açdım,

İzim, Allah əmanəti.

Səbəb yoxdur heç təlaşa,

Öz ömrümü vurdum başa,

Mən gedirəm özün yaşa,

Sözüm, Allah əmanəti.

11 12 2009

SƏNƏ QURBAN

Öz millətindi kimə nə fırlat sənə qurban,

Meymun kimi sal ortaya oynat sənə qurban.

Bir zərrə də nahaq demədin haqq səni yordu,

Doğru sözə sillə yedin qınaq səni yordu

O qədər dara çəkildin sınaq səni yordu,

Girdi ortalığa zalım ortaq səni yordu,

Bir gün bazar aç öz qəmini sat sənə qurban,

Kəf gəl tərəzidə hamıya at sənə qurban.

Göstərmə nə əğyara, nə də sirdaşa bir üz,

Dünya da yalandı yalan uydur ki demə düz,

Əlinə badə alıb şərabı yüzcə qram süz,

İştah ilə qarnını bəslə vur gecə-gündüz,

Bu yolla kef edib başını qat sənə qurban.

Mən-mən deyib sonra özünü dart sənə qurban.

Gizlə cəmiyyətdən qocalıb qarısın oğlun,

Səs salma genəltsin qarnının borusun oğlun,

Bir gün də şəkərə tutulub qurusun oğlun,

Göndərmə bircə il vətəni qorusun oğlun,

Sağlam uşağı həkimə yoxlat sənə qurban.

Rüşvət ver yararsız kimi saxlat sənə qurban.

Nəyinə gərəkdi müsəlman övlad oxuda,

Yaradıb oğlu çoban, qıza xalça toxuda,

Bu səbəbdəndir söyləyir əğyarın çoxu da-

Bil azad görəcəksən Qarabağı yuxuda,

Sevinc göz yaşı səp bizi ağlat sənə qurban

Neynirsən oyanma əbədi yat sənə qurban.

RƏSMİN YAŞADIR MƏNİ

Rəsmin telefonda bir xəyal kimi,

Məsum baxışlarla donub qalıbdı.

Nə qədər etsəm də, baxmır üzümə,

Saçıma qar kimi bir iz salıbdı.

Sənsiz yaşamağım ölümdən betər,

Qorxutmur qəlbimi özgə bir ölüm.

Bir dəfə rəsminə baxanda sənin,

Hicran vüsalımı tərk edir gülüm.

Hər gecə baxıram rəsminə sənin,

Sən qonaq gələsən yuxuma deyə.

Nəbzim dayanıbdı nəfəsim gəlmir,

Qəlbim sənə qaçıb ruhumsa göyə.

Səp sevgi toxumu qəlbimdə bitsin,

Sevgimlə bir ömür bəsləyim səni.

Baxanda gözümdə canlanır əksin,

Quruca rəsmin də yaşadır məni.

Neçə ki yanımda yoxsan sevgilim,

Əllərim rəsmini oxşayacaqdır.

Dünyanın sahibi nə qədər ki var,

Sevgim də dünyada yaşayacaqdır.

03 03 2009

SAQQALI AĞDI

Sözü, söhbəti,

Şitildi, tağdı.

Qazancı yoxdur,

İş yeri bağdı.

İkinci əsri,

Görsə də sağdı.

Başı ağappaq,

Qarlı bir dağdı.

Elə şitdi ki,

Deyərsən lağdı.

Ağsaqqal deyil,

Saqqalı ağdı.

25 04 2010

ŞAİRLİK ALLAH VERGİSİ

Məni şeytan qaralayıb,

Əzir keçir hər cəhdimi.

Həsrət dolu ürəyimdən,

Əsir alıb dərd əhdimi.

Bu dünya fırladır bizi,

Bəsdir uyduq əməlinə.

Ətəyindən yapışmayın,

Top atıram təməlinə.

İlhamım göydən asılı,

Evimsə yerdədir mənim.

Şeir Allah vergisidir,

O, nə mənimdir, nə sənin.

18 05 2010

ƏLBİMİ TAR EYLƏMİSƏN

ənə olan bu sevgimi,

zünə ar eyləmisən.

rəyimdən asıb məni,

ərdə düçar eyləmisən.

şqin ilə yanan canı,

özünü aç yaxşı tanı,

əni sevən bir insanı,

l içrə xar eyləmisən.

əlbim sınıq, belim bükük,

ale yolum sınıq, sökük,

iyərimi bölük-bölük,

açımı qar eyləmisən.

rəyimi verdim sənə,

erə vurdun gülüm yenə,

əli adı verib mənə,

ləmə car eyləmisən.

llahıma etdim xitab,

edim bəsdi verdin əzab,

ilim olub əldə mizrab,

əlbimi tar eyləmisən.

Ömrünün 57-ci baharında dünyasını

dəyişən sevimli aktyorumuz

Telman Adıgözəlova ithaf etdiyim şeir

AYIRDI XALQINDAN ÖLÜM TELMANI

Sənətkar ölməzdir deməyin hanı,

Tarixi vərəqlə yaxından tanı,

Böyük sənətkarın səhnədir canı,

Gözü götürmədi bu adı, sanı,

Ayırdı xalqından ölüm Telmanı.

Neçə gündür ərənlər yas saxlayır,

Qadınlar başına qara bağlayır,

Ardınca gör neçə yanan ağlayır,

Matəmə bürüyüb Azərbaycanı,

Ayırdı xalqından ölüm Telmanı.

Üzündə təbəssüm, qəlbində kədər,

Mərdanə yaşadı ölənə qədər,

Əzəldən belədir kim bilmir məgər?!

Məzar ki çox sevir yaxşı adamı,

Ayırdı xalqından ölüm Telmanı.

Gecəni yaşadı, açmadı sabah.

O Tanrı evinə apardı pənah,

Əlli yeddi yaş nə idi ki, Allah,

Əbədi tərk etdi fani dünyanı,

Ayırdı xalqından ölüm Telmanı.

Teatr ölməyib ki, dünyadan köçə,

Onsuz çox darıxır gəzdiyi küçə,

Qəlbində dəfn oldu gör neçə-neçə,

Həyata keçməyən arzusu, kamı,

Ayırdı xalqından ölüm Telmanı.

Dünya imtahandı ömür bir sınaq,

İlahi sakindi bəndələr qonaq,

Görən necə qıydı bu qara torpaq,

Kəfənə bələyib sadə insanı,

Ayırdı xalqından ölüm Telmanı.

Bir ucu Qarabağ, bir ucu Şirvan,

Bir yanda Mil düzü, bir yanda Muğan,

Dözmür Balakənin, dözmür Naxçıvan,

Yandırdı bu itki, eli obanı,

Ayırdı xalqından ölüm Telmanı.

19 04 2010

CİSMİN QARIŞACAQ TORPAĞA BİR GÜN

Allahı tərk edib yolunu azsan,

Bir anda azından çoxun olacaq.

Yatanda söylə ki şəhadətini,

Bəlkə bu sonuncu yuxun olacaq.

Verilən qərarlar deyildir həvəs,

Son sözü ilk deyib öyünmə əbəs,

Bəlkə dünən sənə düşmən olan kəs,

Sabah gəlib sənlə qohum olacaq.

Hər ömrün sonu var azacıq düşün,

Bu gün var, sabah yox bu toy, bu düyün,

Cismin qarışacaq torpağa bir gün,

Dünyada yaşayan ruhun olacaq.

YAT,YUXUNA QONAQ GƏLİM

Gir qəlbimə tanı məni,

Gülüm bəyan olum sənə.

Yat yuxuna qonaq gəlim,

Gecə əyan olum sənə.

Naz eləyib qəlbimi sıx,

Baxışınla dünyamı yıx,

Bəzən-düzən qarşıma çıx,

Bir də, heyran olum sənə.

Yaş çoxalır, ömür solur,

Bir gün insan yaşa dolur,

İldə qurban bir kəz olur,

Hər gün qurban olum sənə.

27 12 2009

SÖZÜM İÇİMDƏN KEÇİR

Yanaq iki, simam bir,

Üzüm içimdən keçir.

Gözlərə aldanmayın,

Düzüm içimdən keçir.

Kənardan gülə-gülə,

Mənə baxma şəkk ilə,

Gücüm qalıbdır hələ,

Dözüm içimdən keçir.

Özüm haqqam, sözüm haqq,

Qəlbim təmiz, üzüm ağ,

Yazdığım varaq-varaq,

Sözüm içimdən keçir.

17 05 2010

DAHA SƏN EVLİSƏN ÖZÜNƏ QAYIT

Ürəyi dünyadan ay böyük şair,

Qayıt şeirinə, sözünə qayıt.

Subaylıq havasın çıxart başından,

Daha sən evlisən özünə qayıt.

Bu əyləncə səni edər xar indi,

Evdə tənha qalar sənsiz yar indi,

Yolunu gözləyən biri var indi,

İsti ocağına, közünə qayıt.

Dünənki sənsizlik böyük qəm idi,

Qəlbimizdə ümidsizlik cəm idi,

Bu gün toyumuzdu vüsal dəmidi,

Qayıt, bu həsrətin üzünə qayıt.

10 07 2010

MƏNİ İTİRƏCƏKSƏN

Məni itirəcəksən,

Gözündə nəm olacaq.

Dünyanın bütün qəmi,

Üzündə cəm olacaq.

Saf eşqin, məhəbbətin,

Öz halalca qismətin,

Xoşbəxtlik, səadətin,

Özündə kəm olacaq.

Qaynayıb daşacaqsan,

Düz yolda çaşacaqsan,

Şeirlər qoşacaqsan,

Sözündə qəm olacaq.

19 03 2010

SÖYLƏMƏ ŞAİR…

öyləmə şair,

lmayan yerdə.

Adəm oğlu,

lmayan yerdə.

insan özün,

q olmur üzün,

a, bal tək sözün,

mayan yerdə.

dən kini sil,

nlə ötmə dil-dil,

qədrini bil,

lmayan yerdə.

009

ÖLMƏYƏ GƏLDİM

Sevgimin şəriki olmayan gözəl,

Sənlə dərdimi bölməyə gəldim.

Əlvida sözünü deyə bilmirəm,

Saçına nərgizlər hörməyə gəldim.

Vüsalın köçkünüm, hicran məskənim,

Qismətim olubdur ayrılıq mənim,

Bir zaman üzündən öpərdim sənin,

Bu dəfə gözündən öpməyə gəldim.

Hicrindən olmuşam ürəyi xəstə,

Əzrayıl dayanıb başımın üstə,

Sürünə-sürünə bu son nəfəsdə,

Sənin qucağında ölməyə gəldim.

05 05 2009

AĞIL GÖRƏN İŞƏ ÜRƏK NEYNƏSİN

Yolunu səhv salıb azırsa insan,

Şeytanın işidir mələk neynəsin.

Ağlın eylədiyin ürək bacarmaz,

Ağıl görən işə ürək neynəsin.

Həsrətdən saralıb gülü solursa,

Külək ləçəklərin bir-bir yolursa,

Hər gün bir çiçəyə aşiq olursa,

Küsməsin arıdan çiçək neynəsin.

Qaçmaq olmur heç qəzadan, qədərdən,

Sözün qiyməti var düşməz dəyərdən,

Dalğalar dənizə naz edib hərdən,

Sahilə çıxırsa külək neynəsin.

VERDİYİN ƏZABLAR YETMİRMİ MƏNƏ?!

Ədalı baxışın, nazlı yerişin,

Qəlbimi yandırıb, yaxır sevgilim.

Yanımdan yüz gözəl ötüb keçsə də,

Gözlərim bir sənə baxır sevgilim.

Qəlbimi hədiyyə etmişəm sənə,

Canımı istəsən verərəm yenə,

Verdiyin əzablar yetmirmi mənə?!

Xoşbəxtlik bəxş elə axır sevgilim.

Vüsalın qiyməti, həsrətdən baha,

Bulud tək dolmuşam dözməm sabaha,

Sinoptik deyir ki, yağacaq daha,

Qəlbimdə ildırım çaxır sevgilim.

Ümummilli liderimiz

Heydər Əliyevin

anadan olmasının

87-ci ildönümünə həsr etdiyim şeir

ÖNDƏRİM

Bu şeri ruhuna ithaf edirəm,

Dilərəm ruhun şad olsun öndərim.

Vətən bir abidə, memarı sənsən,

Məzarın nur ilə dolsun öndərim.

Əklillər qoyaraq məzarın üstə,

Səni doğma xalqın anır öndərim.

Hər il mayın onu doğum gününü,

Hamı Heydər günü sanır öndərim.

Azadlıq havası bəxş etdin bizə,

Bu dünya durduqca yaşa öndərim.

Daha az qalıbdır milli ordumuz,

Düşmən sərhəddini aşa öndərim.

Adilər dünyadan əbədi köçür,

Sənin tək oğullar ölməz öndərim.

Allah türk dünyasın həmrəy yaradıb,

Şeytan cəhd etsə də bölməz öndərim.

Tarixə həkk olub, dillərə əzbər,

Hopub yaddaşalara sözün öndərim.

İlham tək davamçı qoyub getmisən,

Geridə qalmasın gözün öndərim.

03 04 2010

SEVİRƏM SÖYLƏ

Dünyamız bu yaz,

Qoy olsun bəyaz,

Yaxın gəl bir az,

Sevirəm söylə.

Qəlbimi ovut,

Kədəri unut,

Əllərimdən tut,

Sevirəm söylə.

Çıxıb yoluma,

Keçib soluma,

Sarıl boynuma,

Sevirəm söylə.

Gözün gözümdə,

Durub önümdə,

Doğum günümdə,

Sevirəm söylə.

Qəlbimin təni,

Seçmişəm səni,

Sevindir məni,

Sevirəm söylə.

Budur qar səpir,

Tutan yox çətir,

Ömürdən gedir,

Sevirəm söylə.

Ürəyim yenə,

Əl açır sənə,

Nəzir yerinə,

Sevirəm söylə.

25 03 2009

ÖLMƏZ ANALAR

Əbədi yaşayan, varlığa bənzər,

Ruhları yaşayar, ölməz analar.

Sözüylə mənalı, incilər düzər,

Boş yerə danışmaz, dinməz analar.

Müqəddəs varlıqdır, gəlib cahana

Arxadır, dayaqdır, hər bir insana,

Dünyaya nur saçan, işıqdır ana,

Günəş sönər, əsla sönməz analar.

İnam yerimizdir müqəddəs pirdir,

Tanrımızdan sonra, yeganə sirdir,

Onların istəyi, amalı birdir,

Allahın yolundan, dönməz analar.

04 03 2009

İLK GÖRÜŞDƏ AYRILIQ

Əl uzatdım sənə gülüm,

Əllərimdən tutdun mənim.

Sevinc qəmi üstələdi,

Vüsal oldu dostum mənim.

Əlin qaldı əllərimdə,

Baxdı gözüm, gözlərinə.

Ürək eşqin, bəyan etdi,

Uyub sənin sözlərinə.

Elə o an əsdi külək,

Aramızdan keçdi bizim.

O gün qaldı xatirə tək,

Yaddaşında, ömrümüzün.

Belə sevgi olmamışdı,

Bu məhəbbət yaman qəliz.

Nə ay keçdi, nə il keçdi,

İlk görüşdən ayrıldıq biz.

21 02 2009

QƏLBİM ÖZÜMDƏN BÖYÜKDÜR

Girmə yükümün altına,

Yüküm səndən ağır yükdür.

Özüm dünyadan böyüyəm.

Qəlbim özümdən böyükdür.

Şair oldum artdı qəmim,

Artığımdan çoxdu kəmim,

Dərd içimi yeyib mənim,

Canda qalan bir sümükdür.+

Qəlbimin bağına girib,

Əzrayıl gül-çiçək dərib,

Allah bir elçi göndərib,

Ölüm yarım, dərd üzükdür.

21 12 2009

HƏR ƏVVƏLİN BİR SONU VAR ƏZƏLDƏN

İnsan ömrü, gül kimidir əzizim,

Bir gün açır, bir gün solur neynəsən.

Ölən ölür, gələn tutur boşluğu,

Biri ölür, biri olur neynəsən.

Fərqi yoxdur ya çirkindən, gözəldən,

Gedən gedir, bir də gəlməz təzədən,

Hər əvvəlin bir sonu var əzəldən,

Yaş çoxalır, ömür dolur neynəsən.

Varlı olsan, kasıb olsan da yenə,

Sonda kəfən geyəcəksən əyninə,

Doğulan gün, mələk qonan çiyninə,

Öləndə əzrayıl qonur neynəsən.

01 06 2009

NƏ MƏNASI VAR

Sağikən qədrimi bilməyən gözəl,

Ölənlə ölməyin nə mənası var.

Özgələr ağlayır tabutum üstə,

Qəbrimə gəlməyin nə mənası var.

İlk sevgim bir yığın dərd verdi mənə,

Yenidən sevməyin nə mənası var.

Arxamca danışdın bəs deyil məgər?

Üzümə gülməyin nə mənası var.

Gərəksiz əşya tək atdın bayıra,

Geriyə dönməyin nə mənası var.

Adımı qəlbindən silmisən daha,

Nömrəmi silməyin nə mənası var.

ÖLÜM ELƏ ÖLÜMDÜR

Gözü görə-görə, kor tək yaşamaq,

Bir insançün, bilə-bilə ölümdür.

Həqiqət varikən, doğru varikən,

Yalan söz söyləmək, dilə ölümdür.

İnsan ömür sürməz yaşa dolmasa,

Təbiət məhv olar, açan solmasa,

Gülün nə mənası, bülbül olmasa,

Bülbülsüz yaşamaq, gülə ölümdür.

Kimin ki, qəlbində ələmi çoxdur,

O kəsin həyatda, gözləri toxdur,

Kədərin yüngülü, ağırı yoxdur,

Ürəyin çəkdiyi, çilə ölümdür.

Ölümün önündə biz günah kimi,

Bizə tuşlanıbdı o silah kimi,

İstəyir kasıb öl, istər şah kimi,

Nə fərqi var, ölüm elə ölümdür.

22 03 2009

QURBAN OLUM, SEVMƏ MƏNİ NƏ OLAR

Qəlbimdən çıxarsan yerə düşərsən,

Özgə ayağına sən ilişərsən,

Qorxuram gözümdə adiləşərsən,

Qurban olum, sevmə məni nə olar.

Təzələmə ürəyimin yarasın,

Sıxma əbəs gözlərinin qorasın,

Duymursansa məhəbbətin mənasın,

Qurban olum, sevmə məni nə olar.

Çoxda gözlərində naxışların var,

Çoxda duaların, alqışların var,

Çox da ki, mənalı baxışların var,

Qurban olum, sevmə məni nə olar.

Uzatsam əlimə vermə əlini,

Axı neynirsən ki, mən tək dəlini,

Lap elə olsan da anam gəlini,

Qurban olum, sevmə məni nə olar.

04 06 b2009

ARVAD ƏRƏ SİLLƏ VURUR

Elə kəs var düşməninə,

Altdan-altdan hiylə qurur.

İnsan da var yumruğunu,

Sözlə vurur, dillə vurur.

Düşmən qurur bir ittifaq,

Aramızda salır nifaq,

Tapdalayır haqqı-nahaq,

Dost dostuna, güllə vurur.

Şah olubdur pul dövrana,

Baxan yoxdur heç vicdana,

Dağıl dünya, qal virana,

Arvad ərə, sillə vurur.

12 04 2009

TANRINI TƏRK EDİB SƏNƏ SIĞINDIM

Səndən gələn dərd də, şirindir deyə,

Sevincdən mən qaçıb, qəmə sığındım.

Bu zəngin qəlbimlə, əl açdım sənə,

Əlim boş qayıtdı, yenə sığındım.

Günahım yox idi, indi var daha,

Özüm öz əlimlə batdım günaha,

Səni sevdim, dönük çıxdım Allaha,
Tanrını tərk edib, sənə sığındım.

Xətt çəkdim üstündən, ötən günlərin,

Qəlbimdə dərd olub, bitən günlərin,

Qədrini bilməyib, gələn günlərin,

Səni ilk gördüyüm, günə sığındım.

11 02 2009

Şair, Ustaq aşıq, İki kitab müəllifi,

Adil Cəfakeşin şəyirdi,

ADMİU-nin “Musiqi sənəti” fakültəsinin

IV kurs tələbəsi dayımoğlu

Nasir Laçınlıya həsr etdiyim şeir

NASİR

Sazı basanda bağrına,

Ümmanlarda üzür Nasir.

Laçınımın həsrətini,

Sinəm üstə düzür Nasir.

Cəfakeşdən örnək alıb,

Keçmişini yada salıb,

Cəngi ilə alovlanıb,

Saz qoynunda süzür Nasir.

Sipər olub hər bir mərdə,

Nadanları salıb dərdə,

Tel üstündə pərdə-pərdə,

Xanə-xanə gəzir Nasir.

24 10 2009

MƏZARDI QƏLBİM

Dar gündə vətənin halına yandım,
Payız yarpağı tək bozardı qəlbim.

Yurdum işğal oldu elə utandım,

Vallah üzümdən tez qızardı qəlbim.

Yazaraq dincəldir mənən yorğunu,
Çox sevir ilhamlı, təbi dolğunu,
Bu vətən aşiqi, bu eşq vurğunu,
İlhamı genişdi, yazardı qəlbim.

Torpağı köksündə şəhid daşıyır,

Alıb öz qoynuna sevib, oxşayır,
Yüzlərlə şəhidin adı yaşayır,
Sanki xiyabandı, məzardı qəlbim.

06 10 2009

SEVİRSƏNSƏ ÜRƏKDƏN SEV

Gecə-gündüz yanımda qal,

Gəzmə ayda, ildə məni.

Sevirsənsə ürəkdən sev,

Sevmə gülüm dildə məni.

Haçan məni sən axtarsan,

Ürəyində bil taparsan,

Haldan düşüb yorularsan,

Axtarma yad eldə məni.

Öz dünyamdan qovuluram,

Yad bir yerdə doğuluram,

Dərd içində boğuluram,

Sən də boğma seldə məni.

09 04 2009

MƏNİM O QƏDƏR PİS TALEYİM VAR Kİ…

Mənim o qədər pis taleyim var ki,

Əlimə gül alsam solar əlimdə.

Yapışsam Allahın mən ətəyindən,

Ətəyi cırılıb qalar əlimdə.

Mənim o qədər pis taleyim var ki,

Qəmdən kef çəkirəm, sevgidən zülüm.

Bir addım can atsam ölümə sarı,

Özün naza çəkib tez qaçar ölüm.

Mənim o qədər pis taleyim var ki,

Yetən zəhər qatır halal aşıma.

Göydən bir daş gəlsə min adam üstə,

Hamıdan yan keçib düşər başıma.

Əzizlərimin əzizi, xalam oğlu, Jurnalist Ağa Adiloğlunun

eyni rədifli şeirinə nəzirə

HƏSRƏT

Bir ildi sən yoxsan gözlərim olub,

O mələk simalı üzünə həsrət.

Sənsizlikdən qalıb bu baxışlarım,

Gecəni əks edən gözünə həsrət.

Bulud tək dolmuşam ruhum ağlayır,

Qəlbimdə sel axır, çaylar çağlayır,

Çılpaq dodaqlarım şaxta bağlayır,

Möhtacam bir isti sözünə həsrət.

Bir gün bu həyatda məni itirsən,

Mənə söyləmə ki, tənha gedirsən,

Səni də qəlbimdə aparacam mən,

Bir az da özün qal özünə həsrət.

DÜNYA MƏNƏ ÖYÜD VERDİ

Dünya özü nərd meydanı,

Sanki insan əldə zərdi.

Namərdə meyvə ağacı,

Seçib mərdə söyüd verdi.

Kəsdi xəbərsiz önümü,

Qara etdi hər günümü,

Aldı əlimdən ömrümü,

Yaşa deyib ümüd verdi.

Hər gün girib başqa rola,

Sitəm etdi saf bir qula,

Atam, anam ola-ola,

Dünya mənə öyüd verdi.

03 12 2009

SƏNƏ NƏ ŞEİR YAZIM

Sən söhbətim,

Sən sözümsən.

Sən iradəm,

Sən dözümsən.

Sən özümsən,

Görən gözümsən,

Sənə nə şeir yazım.

Sən musiqisən,

Sən bir nəğməsən.

Sən sətirsən,

Sən bir ilməsən,

Qəlbimdə səslənən

Həzin bəstəsən,

Sənə nə şeir yazım.

Sən gülsən,

Sən bir çiçəksən.

Sən arzusan,

Sən bir diləksən.

Sən nəfəssən,

Sən bir ürəksən

Sənə nə şeir yazım.

Sən məkkəmsən,

Sən pirimsən,

Sən sehirsən,

Bilinməz sirsən.

Axı, ay sevgilim,

Sən ki bilirsən…

Elə sən özün,

Özün şeirsən,

Sənə nə şeir yazım.

KÖLGƏMİZ ÖNDƏ GEDİR

İnsanlar öləndə də,

Ürək bədəndə gedir.

Ruhu Allah evinə,

Cismi kəfəndə gedir.

Bu dünya mənə görə,

Möcüzədir min cürə,

Ayaq dəyməyən yerə,

Ruh çıxır gündə gedir.

Deyilik ayıq sayıq,

Tənbəllərə biz tayıq,

Özümüz arxadayıq,

Kölgəmiz öndə gedir.

07 02 2009

HƏR GÜN HARA GEDİRSƏN?!

Hər gün hara gedirsən sən?!
Tənha qoyub dərsdə məni.
Görmürsənmi sənsizliyin,
Artıq edib xəstə məni.

Dilim də söz tuta bilmir,
Getdiyin yeri öyrənə.
Sən yanımdan gedən kimi,
Ruhum olur ögey mənə.

Gözlərim yollarda qalıb,
Gözləyirəm gəlişini.
Axı səndə bəyənmirəm,
Bu etdiyin vərdişini.

Qısqanclığım həddin aşıb,
Yer tapa bilmir özünə.
Baxışın aldadır məni,
İnamım yoxdur gözünə.

Düşüb yolların ağına,
Bəlkə mən səni izləyim.
Sənə olan şübhələri,
Ürəyimdən təmizləyim.

Keçmərəm öz günahımdan,

Bir yolluq atanda səni.

Qorxuram ki, yadla görəm,

Əl-ələ tutanda səni.

Yaxşısı budur, gözəlim,

Gəl sən özün etiraf et.

Ya qəlbimdə əbədi qal,

Ya səssizcə ömrümdən get.

NƏDƏNDİR?

Ürəyi həsrətlə dolu bir insan,

Dərd əlindən, ölə bilmir nədəndir?!

Göz yaşını silə bilən əlimiz,

Qəlb yaşını, silə bilmir nədəndir?!

Gör nə qədər, maraqlıyıq özümüz,

Həm dilimiz vardır, həm də sözümüz

Hər bir şeyi, görən iki gözümüz,

Özümüzü, görə bilmir nədəndir?!

Tanrı verir, hər bəndəyə bir sınaq,

Sirdi bizə, yaranandan bu ancaq,

Bu dünyaya, yeni gələn hər uşaq,

Ağlayır da, gülə bilmir nədəndir?!

İnsanlar düşünüb, öz əməllərin,

Bilir axirətdə, düşdüyü yerin,

Amma, düşünsə də, dərindən-dərin,

Ölüm günün, bilə-bilmir nədəndir?!

16 02 2009

KİTAB OXU

Əvəzsizdi mütaliyə,

Sədaqətlə kitab oxu.

Bağrına bas, sev, əzizlə,

Məhəbbətlə kitab oxu.

Uzaq tut şeytan məkrini,

Yayındırma öz fikrini,

Cəm edib topla zikrini,

Çox diqqətlə kitab oxu.

Göz gəzdirib tez adlama,

Yazı yazıb qaralama,

Cırma, vərəqin qatlama,

Nəzakətlə kitab oxu.

06 05 2010

NƏ VAR Kİ SEVİNCDƏN KƏDƏRƏ KİMİ

Gülüm! elə yaşa sürünməyəsən,

Cənnət qapısından, məhşərə kimi.

Alına yazılan, yazı belədir,

Hər insan yaşayır qədərə kimi.

Səndən bir istəyim, bir xahişim var,

Gecələr röyama girmə nə olar.

Nə qədər baş verər sayıqlamalar?!

Qoy mən rahat yatım səhərə kimi.

Əzəldən həyatın yolu qəlizdir,

Sevgiylə yaşayan ürək təmizdir,

Sevinc ilə, kədər məsafəsizdir,

Nə var ki sevincdən kədərə kimi.

25 02 2009

İNANMA

Ürək hiss etdiyin göz görə bilməz,

Ürək olan yerdə gözə inanma.

Hər kəsin qəlbində bir şeytan yatır,

Hər könül oxşayan üzə inanma.

Yalan ayaq tutub yerisə gerçək,

Bunu görə-görə dözərmi ürək,

Dil gözün gördüyün söyləsin gərək,

Hər ağızdan çıxan sözə inanma.

Haqqı deyən kəsdi düzdərdə qalan,

Bax buna görə də, çalış ki hər an,

Kasıb söylədiyi yalana inan,

Hər varlı dediyi düzə inanma.

Sevmədiyi halda valideyn təkidi ilə

izdivaca məcbur olanlar üçün yazdığım şeir

MƏNİ SEVƏN QIZLAR UNUDUN MƏNİ

Ürəksiz, könülsüz nişan günümdür,

Məni sevən qızlar unudun məni.

Bu günə, sabaha toy düyünümdür,

Məni sevən qızlar unudun məni.

Qəlbimdə qalmayıb zərrə məhəbbət,

Əlçatmaz xəyala dönüb səadət,

Bu da bir taledir, bu da bir qismət,

Məni sevən qızlar unudun məni.

Bu gündən siz olun başımda tacım,

Bir ömür yaşanan tək ehtiyacım,

Bu şeirim sizə son ismarıcım,

Məni sevən qızlar unudun məni.

HƏR SƏTRİM ALLAH SÖZÜDÜR

Bu dünyanın bir sirri var,

O da ki, Allah üzüdür.

Bulud niyə dolsun axı,

Dolan Tanrının özüdür.

Dünya deyil özbaşına,

Yağışı sal yaddaşına,

O bənzəyir göz yaşına,

Ağlayan insan gözüdür.

Söz gəzirəm əldə qələm,

Kağız mənim ağır şələm,

Sanma şeir yazan mənəm,

Hər sətrim Allah sözüdür.

31 03 2009

MƏNİ MƏNDƏN AYIRMAYIN

Həzin bir saz havasıyam,

Məni bəmdən ayırmayın.

Gur işıqda azır təbim,

Məni şəmdən ayırmayın.

Girir qəlbə müvəqqəti,

İstəmirəm məhəbbəti,

Dərddə tapdım sədaqəti,

Məni qəmdən ayırmayın.

Düz danışdım sillə yedim,

Bu da mənə bəsdi dedim,

Öz yolumla qoyun gedim,

Məni məndən ayırmayın.

05 05 2010

MİŞƏM VERGÜL KİMİ

ndən saçıma dən,
dir bir kül kimi.
gilim sənsizlikdən,
şam mən gül kimi.

b məhəbbətim,
yıbdır heç hörmətim,
ağır xasiyyətim,
əzir yüngül kimi.

əyib bu eşq gücün,
alır o öz öcün,
qədər sevgi üçün,
şəm vergül kimi.

009

QARANLIQ GECƏ

Görmə qabiliyyətini müxtəlif qəza nəticəsində itirib,
işıqlı dünyaya həsrət qalanlara idhaf edirəm

Necə qaranlıqdı, bu gün İlahi!
Sanki, daha sabah açılmayacaq.
Sanki, bir də, pəncərəmdən içəri,
Günəş şəfəqləri saçılmayacaq.

Zənnimcə, bu saat gecə yarıdır,

Gəlmir evimizə, səhərin mehi.

Cismimə də dəymir, hələ ki, mənim,

Bu doğma Bakımda, şəhərin mehi.

Nə saat görünür, nə əqrəbləri,

Saatı bilib də, rahatlıq tapam.

Yuxum da gəlmir ki, xəyaldan qopub,

Uzanıb yerimdə, sakitcə yatam,

Buz kimi otaqda donub qalmışam,

Bədənim isinmir, qəlbim isinmir.

Hər hara baxıram, ətraf qaranlıq,

Bir yerdən gözümə, işıq görünmür.

Ürəyim dözmədi, daha gözləyəm,

Anamdan soruşdum, saatı o an.

Dedi ki, ay oğlum, daha sabahdır,

Çox yatma, işin var, yuxudan oyan.

Bu sözü eşitdim, tutuldu dilim,

Bilmədim, ömrümdə baş verən nədir.

Allaha üz tutub, bunu dilədim,

Bu yazıq bəndənə səbr ver səbr.

Bu dəfə nədənsə, səbrim çatmadı,

Yerimdən atılıb, durdum ayağa.

Addım atdım, görmədiyim bir yerə,

Taxtımdan yıxılıb, düşdüm qırağa.

Bir anda qəlbimdə, şübhələr doğdu,

Suallar verdim mən özüm-özümə.

Yaş axdı gözümdən, yağış, sel kimi,

Şübhəylə yanaşdım mən, öz gözümə.

Bu nə mənzərədir, qorxuram Allah?!

Başıma gələnlər yuxumu, nəmi?

Nə bilim gözlərim, kor olub bu gün,

Nə bilim itibdir, gözümün şəmi.

22 02 2009

Əbədiyaşar şairimiz, Nüsrət Kəsəmənlinin

eyni sərlövhəli şeirinə nəzirə

MƏNİ BU SEVGİDƏN YETİM BURAXMA

Tələsmə əlvida sözün deməyə,

“Məni bu sevgidən yetim buraxma.”

Hələlik: söyləyib ümid ver bir az,

“Məni bu sevgidən yetim buraxma.”

Məni yad baxışla süzmə nə olar,

Qəlbimə həsrəti, düzmə nə olar,

Əlimdən əlini, üzmə nə olar,

“Məni bu sevgidən yetim buraxma.”

Sevgimə şəriksən, sən elə mənsən,

Dünyada dəyərli varlığım sənsən,

Getmə rəhmin gəlsin bu yoldan dön sən,

“Məni bu sevgidən yetim buraxma.”

Ətəyindən tök ayrılıq daşını,

Səhvim varsa, bağışla sirdaşını,

Sarılıb boynuma sil göz yaşımı,

“Məni bu sevgidən yetim buraxma.”

Gör neçə vaxtdır ki, ağır xəstəyəm,

Əcəllə üz-üzə dar qəfəsdəyəm,

Qoy ölüm sonra get, son nəfəsdəyəm,

“Məni bu sevgidən yetim buraxma.”

Gəl uyma şeytana üz tut Allaha,

Məni tərk eləyib batma günaha,

Onsuzda atasız yetiməm daha,

“Məni bu sevgidən yetim buraxma.”

DÜNYA QƏFƏSDİR ŞAİRƏ

Təması var Allah ilə,

Şair olsun, ya şairə.

Biri ölür, biri olur,

Ömür həvəsdir şairə.

Bilməyənlər bilsin bunu,

Ölümsüzdür, yoxdur sonu,

Tək yaşadan sözdür onu,

Şeir nəfəsdir şairə.

İlahidir tək köməyi,

Arif olandır mələyi,

Nə etsin, sığmır ürəyi,

Dünya qəfəsdir şairə.

27 03 2010

ƏSİR DÜŞÜB ÜRƏK SƏNƏ

Çox gözəllər küsdü məndən,

Mən deyəndə mələk sənə.

Sevgi verdim götürmədin,

Dərd verəydim gərək sənə.

Ürəyimdə qalacaqsan,

Orda məskən salacaqsan,

Bilsəydim ki, solacaqsan,

Mən deməzdim çiçək sənə.

Sevgi əyib şux qəddini,

Bilməz olub öz həddini,

Keçib eşqin sərhəddini,

Əsir düşüb ürək sənə.

13 04 2009

Tələbə yoldaşım Mirzəyev Vüqar Mofiq oğlunun doğma yurdu

Gədəbəydə qonaq olarkən

Gədəbəy torpağının təbiətindən ilhamlanıb

qələmə aldığım şeir

GƏDƏBƏY

Bu köçkün cismimi basıb bağrına,

Ana tək qeydimə qaldı Gədəbəy.

O yerdə Laçının ətrini duydum,

Şəkərdi Gədəbəy, baldı Gədəbəy.

Uzandım bir gözəl çay qırağında,

Təbiətin gözəl payız çağında,

Mənə süfrə açıb öz qucağında,

Bala tək qoynuna aldı Gədəbəy.

Şaxtalı havası sinəmə doldu,

Şair təbim o dağlara vuruldu,

Bir anım bir ömrə bərabər oldu,

Keçmişi yadıma saldı Gədəbəy.

24 08 2009

QƏLBİMDƏDİR MƏZARI

Ürəkdə ölən eşqin,

Bu gün üçüdür Allah.

Qalaqlanıb üst-üstə,

Yeddisinə dörd sabah.

Təqvim dəyişən kimi,

Qırxı çıxacaq hələ.

On ay iyirmi günə,

Son qoyacaq bir ilə.

Bu ölüm çox fərqlidir,

Qoyulmayıb baş daşı.

Öləndən xəbərsizdir,

Qızın bacı-qardaşı.

Göz yaşlarımla yuyub,

Dəfn etmişəm o yarı.

Torpağı axtarmayın,

Qəlbimdədir məzarı.

25 12 2009

FİKİR

Bir siqaret tüstüsü tək,

Xəyalıma axdı fikir.

Girib sağlam bədənimə,

Xəstəliyin yaxdı fikir.

Qınaq etdi hər cəhdimi,

Qəlbimdə qoydu əhdimi,

Əridib məni şam kimi,

Axırıma çıxdı fikir.

Qoymadı nəfəs almağa,

Xoş bir xəyala dalmağa,

Öyrətdi tənha qalmağa,

Ürəyimi sıxdı fikir.

Sillə vurdu yanağıma,

Qəm gətirdi dodağıma,

Sarılıb əl-ayağıma,

Məni yerə yıxdı fikir.

22 08 2010

ONSUZDA YUXULAR TƏRSƏ YOZULUR

Yuxuma girmişdin yenə bu axşam,

Məsum gözlərinlə baxırdın mənə.

Elə bil sən hakim, mən məhkum idim,

Olmazın günahın yaxırdın mənə.

Zülmətə bürünən səssiz gecədə,

Öyrənə bilmədim günahım nədir.

Bəlkə də gördüyüm bu yuxu məni,

Gələcək günlərdən xəbərdar edir.

Göz yaşın alnıma dəyəndə bildim,

Bəxtimə yazılan yazı pozulur.

Ayrılıb getsən də peşman deyiləm,

Onsuz da yuxular tərsə yozulur.

Cabir Novruzun “Sağlığında qiymət verin insanlara”

misrasından təsirlənərək, yazdığım şeir

HAQQINI HALAL ET BAĞIŞLA ANA

Doğulub dünyaya gəldiyim gündən,

Çıxdı rahatlığın əlindən ana.

Gecələr yatmayıb laylamı dedin,

Of sözü çıxmadı dilindən ana.

Doqquz ay bətnində bəslədin məni,

Mən sənə nə etdim bilmirəm ana.

İndi göz yaşlarım süzür yanağa,

Yanaqda quruyur silmirəm ana.

Uşaqkən qədrini bilmirdim sənin,

Öpməzdim ağarmış telindən ana.

İndi can üstəsən nə mənası var,

Yüz kərə öpsəm də əlindən ana.

Qəlbinə toxundum yenə can dedin,

Bir ömür xətrimə dəymədin ana.

Halal zəhmətinlə böyütdün məni,

Heç kimə sən boyun əymədin ana.

Yaxşı əməlinlə abidə qurdun,

Hər kəsin qəlbində ucaldın ana.

O qədər dərdimi, cəfamı çəkdin,

Gözümün önündə qocaldın ana.

Ömrünü caladın mənim ömrümə,

Bir dəfə ürəkdən gülmədin ana.

Özün öz canından pay verdin mənə,

Ruhumda sən varsan ölmədin ana.

Adın müqəddəsdir adına qurban

Bəzəmək nə lazım naxışla ana.

Əvəzin yox imiş gec anlamışam,

Haqqını halal et bağışla ana.

GÖRMƏDİN Kİ…

Ay dünyamı viran edən,

Mənlə dünya hörmədin ki.

Aldın əlimdən ömrümü,

Mənə ömür vermədin ki.

Keçdim sağına, soluna,

Diz çökdüm eşqin yoluna,

Sənsə bu Allah quluna,

Bircə çiçək dərmədin ki.

Taleyin səni ağladı,

Həsrət sinəni dağladı,

Sevgi gözünü bağladı,

Qarşındakin görmədin ki.

12 12 2009

MƏNƏ UZUN ÖMÜR ARZULAMAYIN

Mənə uzun ömür arzulamayın,

Onsuzda Allahım yazdığın yazıb.

Xınalı yaşamaq şərt deyil əsla,

Kişi tək yaşayım olsamda kasıb.

Mənə elə ömür arzulayın ki,

Ayağım üstündə yeriyə bilim.

Ən doğma kəsimə möhtac olmadan,

Qəbrədək özümü hərləyə bilim.

Mənə uzun ömür arzulamayın,

Uzun yaşamaqdan yaman qorxuram.

Qəlbimdə məhəbbət qeybə çəkilər,

Tərk edər ruhumu canan qorxuram.

Mənə elə ömür arzulayın ki,

Çirkaba batmadan yaşaya bilim.

Əllərim əsmədən yetim saçını,

Sevərək əl çəkib oxşaya bilim.

Mənə uzun ömür arzulamayın,

Olaram abırdan, həyadan, üzdən.

Ahıl çağlarımda günah işlədib,

Düşərəm hörmətdən, düşərəm gözdən.

Mənə elə ömür arzulayın ki,

Allahın rəhmətin qazana bilim.

Son nəfəsdə ölüm şəhadətimi,

Sonadək deməyi bacarsın dilim.

Mənə uzun ömür arzulamayın,

Qorxuram ki düşər ayağım girdən.

Ayağım möhtac olar əsa tutan,

Yaralar bağlayan əlimə birdən.

Mənə elə ömür arzulayın ki,

Sözümü eşidən yenə eşitsin.

Bircə kəlmə belə danışmayanda,

Baxışımdan məni anlaya bilsin.

Mənə uzun ömür arzulamayın,

Bilirəm mənim də ölümdür sonum.

Xoşbəxtlik odur ki, Allah evindən,

Uzağa düşməsin əqidəm, yolum.

Mənə elə ömür arzulayın ki,

İnsanlar içində tanınsın izim.

Qəbir düzəltməsin əyri belimi,

Şux dursun əynimdə kəfənim, bezim.

GETMƏ

İsti qucağından ayırıb məni,

Bir soyuq kəfənə bələyib getmə.

Ömrümün bu gözəl bahar çağında,

Bir kədər yağışı çiləyib getmə.

Demirəm mənimçün sən ölümə get,

Görsən ki dardayam imdadıma yet,

Xəstəyə Allahdan şəfa arzu et,

Heç kəsə sən ölüm diləyib getmə.

Olsan da dünyanın hər harasında,

Sən varsan qəlbimin tən ortasında,

Bərk-bərk sıxıb iki daş arasında,

Qəlbimi un kimi ələyib getmə.

26 10 2009

BİZİM BAHARIMIZ, YAZIMIZ YOXDUR

Nadanlar qaçqına, naz eyləyirlər,

Sanki bizim qəmzə, nazımız yoxdur.

Əlimizdə, mizrabımız olsa da,

Bir könül oxşayan, sazımız yoxdur.

Payızla olmuşuq, yaxın bir yoldaş,

Sirrini bölüşən, doğmaca sirdaş,

Gül-çiçək üzünə, həsrətik qardaş,

Bizim baharımız, yazımız yoxdur.

Ümidimiz bircə qalıb Allaha,

İnam yoxdur, açılacaq sabaha,

Dərddən dişlərimiz, tökülüb daha,

Damaqda bir dənə, azımız yoxdur.

01 03 2009

ALLAH BU GÖZƏLİ NECƏ YARATDIN!

Bir kəlmə söz desə ürək dayanar,

Allah bu gözəli necə yaratdın.

Toxunsa bir ömür ömrüm uzanar,

Allah bu gözəli necə yaratdın.

Dağların gurlayan şəlaləsidir,

Pay alsan ləbindən bal şirəsidir,

Xəstənin dərmansız bir çarəsidir,

Allah bu gözəli necə yaratdın.

Sevgidən yoğrulub sanki mayası,

Təbii gözəldi yoxdur boyası,

Üzündən bilinir arı, həyası,

Allah bu gözəli necə yaratdın.

Dünyaya hava tək, su tək gərəkdir,

Göydən yerə enmiş nəcib mələkdir,

Qoxusu ətirli güldür, çiçəkdir,

Allah bu gözəli necə yaratdın.

Ay görsə günəşin üzünə baxmaz,

Ulduzlar səmaya bir daha çıxmaz,

Çaylar da quruyar dənizə axmaz,

Allah bu gözəli necə yaratdın.

Ox kimi düzülüb kipriyi, qaşı,

Səhv salar saçını ipəkdən naşı,

Gözləri gecənin əkiz sirdaşı,

Allah bu gözəli necə yaratdın.

BU DÜNYA ALLAHINDI

Bu dünya Allahındı,

Dağıdırsa mənə nə.

Özü bilər nə edir,

Tikən odur, kimə nə.

Mən ki adi qonağam,

Evimdir soyuq məzar.

Ən azı dünya boyda,

Ürəyimdə yerim var.

Külək əsmir neyniyim,

Şeirlər nəfəsimdi,

Neynirəm bu dünyanı,

O dünya da bəsimdi.

11 05 2010

ƏLLƏRİNİ AÇIR ÜRƏK...

Sevgisindən hər tərəfə,

Günəş kimi saçır ürək.

Gözüm səni görən kimi,

Qucağına qaçır ürək.

Qəlb olanda dərd məskəni,

Rahat qoymur ruhum məni,

Görməyəndə bir gün səni,

Öz yerindən uçur ürək.

Ömrüm boyu bir nəfərə,

Əl açmadım bircə kərə,

Nə edim ki, eşqə görə,

Əllərini açır ürək.

15 04 2009

BÖYÜDÜM

Yıxıldım, heç kəsdə günah bilmədim,

Öz başıma, döyə-döyə böyüdüm.

Hicran məni günü-gündən kiçiltdi,

Qəm-kədəri, yeyə-yeyə böyüdüm.

Atayla anadır bütöv bir ürək,

Böldü ürəyimi ikiyə fələk,

Uşaq oldum, yaşamadım uşaq tək,

Mən kişiyəm, deyə-deyə böyüdüm.

Diz çökmədim, baş əymədim mən yada,

Xal düşmədi nə vicdana, nə ada,

Üzüm ağdı, alnım açıq dünyada,

Başım daşa, dəyə-dəyə böyüdüm.

BİRDƏNƏYƏM ALLAH KİMİ

Bu dünyanın bütün dərdi,

İçimdədir bir ah kimi.

Hara getsəm mənimlədir,

Boynumdadır günah kimi.

Hər sabahım zülmət dolu,

Gecələrim lap qorxulu,

Görünməzdir ömür yolu,

Sis bürüyən sabah kimi.

Nə bacım var, nə qardaşım,

Nə atam var, nə sirdaşım,

Bir anamdır, bir öz başım,

Birdənəyəm Allah kimi.

31 03 2009

MƏN OLMADIM Kİ.

Sənsiz də xoşbəxtəm mən bu həyatda,

İtirən sən oldun, mən olmadım ki.

Baharda qəlbinə qışın qarını,

Gətirən sən oldun, mən olmadım ki.

Sarılıb boynuma alsan qoxumu,

Gecələr qoymazdın yatam yuxumu,

Bu eşqə səpərək həsrət toxumu,

Bitirən sən oldun, mən olmadım ki.

Yalvarıb nə qədər dil tökdün yenə,

Əlvida sözünü söylədim sənə,

Ağlaya-ağlaya özünü mənə,

Yetirən sən oldun, mən olmadım ki.

02 11 2009

GÜVƏNMƏ

Səmaya baxmadan öz ürəyində,

Allahı görməyən qula güvənmə.

Ağıl olan yerdə, söz olan yerdə,

Yumruğa güvənmə, qola güvənmə.

Əzrayıl yuxudan qalxar, oyanar,

Sabahın zülmətə qəfil boyanar,

Ürəkdi bir anda vurmaz, dayanar,

Yığdığın sərvətə, pula güvənmə.

Nadanın qəlbini bu qorxu dəlir,

İmanı olan kəs çox yaxşı bilir,

Hər kəs bu dünyaya bir dəfə gəlir,

Ona ikinci şans ola güvənmə.

KÜL QOYUM OĞUL BAŞINA

Ay arvad kimi deyinən,

Kül qoyum oğul başına.

Əyninə yubka geyinən,

Kül qoyum oğul başına.

Qız tək əllənir bədənin,

Ayaq altda düşüb mənin,

Nazın yerə sığmır sənin,

Kül qoyum oğul başına.

Baxmırsan gözəl canana,

Qaxınc olmusan anana,

Göz-qaş edirsən oğlana,

Kül qoyum oğul başına.

Əl gəzdirirsən özünə,

Sürmə çəkirsən gözünə,

Pudra yaxırsan üzünə,

Kül qoyum oğul başına.

Yerişin aldadır çoxun,

Yüz metirdən gəlir duxun,

Hər gün anılır varyoxun,

Kül qoyum oğul başına.

Şişirtmisən dodağını,

Laklamısan dırnağını,

Deşdirmisən qulağını,

Kül qoyum oğul başına.

Qəm çəkir şair ilhamı,

Əridir bu yazıq şamı,

Bir ağızdan deyir hamı,

Kül qoyum oğul başına.

12 05 2010

HAMI BİLDİ, SƏN BİLMƏDİN

Gözlərimdən axan yaşı,

Hamı sildi, sən silmədin.

Məni mənsiz tərk eləyən,

Hamı öldü, sən ölmədin.

Son nəfəsdə səni bir gün,

Çağırsamda görmək üçün,

Çatmadımı sənə bu ün,

Hamı gəldi, sən gəlmədin.

Ömrüm axdı bir sel kimi,

Dünyam uçdu qaldı himi,

Sənə olan bu sevgimi,

Hamı bildi, sən bilmədin.

17 10 2009

DÜNYANIN DA SAHİBİ VAR

Hər bəndənin öz alnına,

Tanrı fərqli yazı, yazar.

Hər insanın bir sevəni,

Yol yoldaşı, talibi var.

Bu dünyanın sınağından,

Ağıllılar qalib çıxar.

Döyüş, savaş meydanının,

Yalnız bircə qalibi var.

Tanrı görür, hər əməli,

Odur verən, sonda qərar.

Sanma dünya sahibsizdi,

Dünyanın da sahibi var.

02 03 2009

GÖZƏL

Gözəl gözlərinin vurğunu oldum,

Ürəyim adını yazdı qayada.

Leyli öz Məcnunun itirən gündən,

Narahat yaşayır şair dünyada.

Aldadan özünü aldadır gülüm,

Riyakar üzündən, gözündən bəlli.

Vəfasız gözələ, çirkinə baxmır,

Əqidə yolçunun izindən bəlli.

Röyamda yaşamaq istərəm səni,

Oyanan ürəklər min seçimdədir.

Müxtəlif olsa da hər kəsin əqli,

Amma ki vücudu bir biçimdədir.

16 01 2010

HAQSIZLIQ GÖRƏNDƏ ALLAH AĞLAYIR

İnsanı yolundan, tamah çıxarır,

Tamahın işinə, pənah ağlayır.

Tanrıya yetəndə bəndənin ünü,

Özünə qapanıb, günah ağlayır.

Kiminsə düşəndə, ləkə adına,

Nə vaxtsa əməli düşür yadına,

Keçmişdə işlənən səhvin oduna,

Açılan hər yeni, sabah ağlayır.

Hər yağış Tanrının, göz yaşlarıdır,

Gözlərindən axan, öz yaşlarıdır,

Haqqı tapdanana, döz yaşlarıdır,

Haqsızlıq görəndə, Allah ağlayır.

18 02 2009

DƏRD QOVURUR KÖZDƏ MƏNİ

Ürəyin özgəyə vurğun,

Dilin sevdi sözdə məni.

Arxamca qeybət elədin,

Tərifədin üzdə məni.

Bəyənmirdim hər çiçəyi,

Sənə verdim saf ürəyi,

Əsir həsrətin küləyi,

Dərd qovurur közdə məni.

Özümdən də daha böyük,

Eşqin olub qəlbimə yük,

Sənsiz qaldım boynu bükük,

Atıb getdin düzdə məni.

09 12 2009

GÖZDƏN AXITMAĞA YAŞ SAXLAYIRAM

Dar gündə bir işə yarıya bilən,

Ağılı yerində baş saxlayıram.

Alnımın yazısın qorusun deyə,

Ox kimi düzülən qaş saxlayıram.

Bulud da ağlayır bilmirəm nəyə,

Göz yaşı tək axır bu yağış niyə?!

Sabahım bu gündən pis olar deyə,

Gözdən axıtmağa yaş saxlayıram.

Neçə ki sınmayıb bəxtimin simi,

Əyilməz qəlbimin təməli, himi,

Qəbrimin üstünə baş daşı kimi,

Qoymağa söz adlı daş saxlayıram.

ƏBƏDİYYƏT GÖYDƏDİR

Yuxularda keçmişi,

Görürəm açıq-aydın.

Gələcəyi görərdim,

Yuxuya inansaydım...

Şeytan qanı tərk etsə,

İşləmərik günahı.

Haqqa tərəf üz tutsaq,

Biz görərik Allahı.

Hər bir ölən insanın,

Son mənzili yerdədir.

Ruhlar göyə uçursa,

Əbədiyyət göydədir.

09 03 2009

QOVUŞMAZ SEVƏN-SEVƏNƏ

Ağ kağıza hopub gedir,

Mürəkkəblə dərdim yenə.

Boylanıram keçmişdəki,

Sənlə keçən o xoş günə.

Göz açandan bu dünyaya,

Qəsd eləyir həyat mənə.

Mən əzaba öyrənmişəm,

Rəhmi gələ kaş ki sənə.

Ağlım kəsib, göz görəndən,

Sınamışam dönə-dönə.

Bu dünyanın canı çıxar,

Qovuşmaz sevən-sevənə.

10 12 2009

DÜNYADAN QAÇA BİLMƏDİM

Baş alıb bu dünyadan,

Bir gün qaçmaq istədim.

Öz ömür yolumda mən,

Gələcəyi səslədim.

Ümidim sözə qaldı,

Bir şeirim ölmədi.

Sözüm dünyanı gəzdi,

Ordan çıxa bilmədi.

Ruhum, sən göyə ucal,

Mən girim torpağıma.

Ölüm də kömək olmaz,

Dünyadan qaçmağıma.

17 04 2010

AĞSAQQALDI QARI?!

Hər kim olsan ömür boyu,

Üzdə saxla həya, arı.

Yüz yaşında ölmür hamı,

Hər yaşın var öz baharı.

Adam olmaq çətindirsə,

Bir qapıda it ol barı.

Ham-ham elə adam qoru,

Qazan əhdi, düz ilqarı.

Qarı nənə tük buraxıb,

Üzündə var dümağ qarı.

Saqqalına görə bəlkə,

Deyim ağsaqqaldı qarı?!

DÜNYADA BİR SEVƏN VAR…

Bilirəm,

Səndə sevgi yoxdur,

yox.

Sənin kimi, sevənlər-

bu dünyada çoxdur,

çox.

Keçib soluma,

Girmə qoluma.

Bir daha,

bir də-

Çıxma yoluma.

Tutma əlimdən,

Əlimi burax.

Apar nişan üzüyün-

Yad barmağa tax.

Gözümə baxma,

Dolubdu gözüm.

Məni yandırma, yaxma,

Sənə budur son sözüm

Həqiqət acıdır,

Gərək ki, dözüm.

Bilmirsən eşq nədir,

Sən ay əzizim.

Dünyada bir sevən var,

O da, mən özüm.

03 10 2010

QOCA ADAM

Tor seçir gözü,

Eşitmir qulaq.

Titrəyir çənə,

Söz tutmur dodaq.

Dişi tökülüb,

O protez taxır.

Beli bükülüb,

Yaman darıxır.

Alnı qırışdı,

Saçı ağappaq.

Diz girdən düşüb,

Yerimir ayaq.

Huşun itirib,

Əlləri əsir.

Baharda belə,

Canı buz kəsir.

Əsəbi gərgin,

Çıxır özündən.

Xəstəlik yağır,

Nurlu üzündən.

Uca saxlayın,

Qoca adamı.

Hər kəs ölsə də,

Qocalmır hamı.

DÜNYA ŞAİRDƏN KİÇİKDİR

Allah ürəksiz yaradıb,

Əhdə düz ilqarı yoxdur.

Hardan bilsin sevgi nədir?!

Dünyanın ki yarı yoxdur.

Kef çəkdirir o namərdə,

Mərd olanı salır dərdə,

Azmış kimi öldürür də,

Üzdə həya, arı yoxdur.

Qiyməti bircə qəpikdir,

Sağolu şillə-təpikdir,

Dünya şairdən kiçikdir,

Söz deməyə karı yoxdur.

01 12 2009

AT KƏNARA QUMARI

Etdin giley-güzarı,

Qış eylədin baharı,

Əlindən ixtiyarı,

Çıxardın ağla, zarı,

At kənara qumarı.

Aldın elin lənətin,

Qalmayıbdır hörmətin,

Getdi namus, qeyrətin,

İtirdin həya, arı,

At kənara qumarı.

Hər gün qopur fəryadın,

Nə günahı arvadın,

Yazıq deyil övladın?

Unut bu zəhrimarı,

At kənara qumarı.

Ol dərdinin loğmanı,

Yox et zəhər, boğmanı,

Düşünmürsən doğmanı,

Canını düşün barı,

At kənara qumarı.

Əsirdi solun, sağın,

Öz ailən, uşağın,

Tapdalandı papağın,

Qumara qoydun yarı,

At kənara qumarı.

Son qoy bu pis vərdişə,

Namuslu ol həmişə,

Tövbə eylə bu işə,

Əfv etsin səni Tanrı,

At kənara qumarı.

Burda saxla həvəsi,

Budur bunun çarəsi,

Olma qumar xəstəsi,

Ol sevginin bimarı,

At kənara qumarı.

Qalmayıbdır köməyin,

Sənin arxan, dirəyin,

Yoxdur evdə çörəyin,

Talan eylədin varı,

At kənara qumarı.

Nəydi sənin niyyətin?!

Demə yoxdur qismətin,

Alçaldı şəxsiyyətin,

Əydin qəddi, vüqarı,

At kənara qumarı.

03 06 2009

DOSTUMA XİTAB

Dostum, bunu yaxşı bil,

İt qorxudan hürür yada,

Cəsarətdən hürən deyil.

Günəşdən nur alan gözüm,

Bütü Allah görsə bir gün,

Bil ki kordu görən deyil.

Azadlığı sevir deyə,

O bədəndən uçur göyə,

Ruh məzara girən deyil.

Gələn bir gün gedir bada,

Ölən daha bu dünyada,

Bir də ömür sürən deyil.

BU ADİ SƏSLƏNƏN ZƏNGİMSEL DEYİL

Nömrəmi yığmısan bu gecə vaxtı,

Pərişan halımı soruşmaq üçün.

Bir illik həsrəti atıb kənara,

Küsülü qəlbimlə barışmaq üçün.

Qəlbimin qapısın kilidləmişdim,

Yad olan bir kimsə girməsin deyə.

Əzizim xoş gəlib səfa gətirdin,

Bu qapı açıqdır təmiz sevgiyə.

Xoş gəldin ömrümə, səni qəlbimdən,

Əsrlər qoparmaz nədir ki bir il.

Qəlbimin səsidir indi duyduğun,

Bu adi səslənən zəngimsel deyil.

“Araz” ədəbi məclisinin sədri, yeddi kitab müəllifi,

Firudin Şahbuzlunun“Adamı qoymurlar adam olmağa”şeirinə nəzirə

ADAMI QOYMURLAR ADAM OLMAĞA

Yüz il də üstünə yağış, qar yağa,

Təpələr üst-üstə bənzəməz dağa,

Ayağımız girmir eyni başmağa,

Vətən tapşırılıb arvad-uşağa,

“Adamı qoymurlar adam olmağa.”

Tanışdan qaçırıq biz getsək hara,

Həmrəylik nə lazım, sağalmır yara,

Heç bir kəs gəlməyir eyni qərara,

Biri sola çəkir, birisi sağa,

“Adamı qoymurlar adam olmağa.”

Ay aman! həyatda bilmirəm niyə,

Biri istəmir ki, birin dinləyə,

O qədər dözürük hər çətinliyə,

Qorxuram oxşayaq uzunqulağa,

“Adamı qoymurlar adam olmağa.”

Siçanlar pişiyi güdür qıraqda,

Hazır bala qonur milçək tabaqda,

Pələng arxadadır tülkü qabaqda,

Müğənnilik edir indi qurbağa,

“Adamı qoymurlar adam olmağa.”

Hələ də bu bizdə bir ənənədir,

Keçmişdən yadigar bir nişanədir,

Başımıza gələn bu bəla nədir?!

Gedib dua edək pirə, ocağa,

“Adamı qoymurlar adam olmağa.”

“Kar ola duymaya bu sözü qulaq,

Adam var əlilə söyləyir çolaq,

Dünyaya yenicə gələn bir uşaq,

Nə örnək götürsün baxıb yaltağa,

Adamı qoymurlar adam olmağa.”

Həqiqət nurundan gözümüz içir,

Gör ağı qaradan nə gözəl seçir,

Dövlətlər arası marafon keçir,

Bizi təmsil edir bir cüt tisbağa,

“Adamı qoymurlar adam olmağa.”

Qarabağ yolunda açılmır düyün,

Küçədə qorxağıq, evdə ərköyün,

Yığışın ay millət başıma döyün,

Alim alverçidi, cahili ağa,

”Adamı qoymurlar adam olmağa.”

ÖPÜM YANAĞINI ALIB OVCUMA

Qəlbimə günəşin istisi dəymir,

Qışı xatırladır bu bahar, bu yaz,

Qədəm bas evimə bu qış axşamı,

İlıq nəfəsinlə isinim bir az.

Yüz yol təriflərəm sən tək mələyi,

Aşiqə xoş gələr yar etdiyi naz.

O gözəl hüsnünə mən şeir qoşum,

Sən mahnı bəstələ, sən musiqi yaz.

Bizi xoşbəxt görüb sevinsin Xəzər,

Kür kürlük eyləsin, çağlasın Araz.

İsinsin istinə donmuş bədənim,

Nə şaxta hiss edim, nə şeh, nə ayaz,

16 03 2010

DİLİMDƏN ASDILAR SÖZÜMÜN ÜSTƏ

Addım atdım önə hiylə qurdular,

Uşaq tək yıxıldım üzümün üstə.

Qulağa uymadım gözə inandım,

Mil çəkdilər iki gözümün üstə.

Alışıb kül oldum sümüyə qədər,

Dayana bilmədim dizimin üstə.

Ocağım qalandı bundan da betər,

Külümü qoydular közümün üstə.

Özgənin dərdinə yandım, alışdım,

Bir cəfa çəkmədim özümün üstə.

Doğrunu söylədim haqdan yapışdım,

Dilimdən asdılar sözümün üstə.

GÖZƏLLİYİM İÇİMDƏDİR

Ölkəmiz avropalaşır,

Hərə bir cür licimdədir.

İndi sırqa taxmaq üçün,

Hətta kişi seçimdədir.

Dodaq oxşar, burun oxşar,

Qaş döydürmə, yanağı şar,

Dövrümüzdə açıq-aşkar,

Qadın eyni biçimdədir.

Ömür bənzəyir nağıla,

Belə dünya tez dağıla,

Qiymət yoxdur heç ağıla,

Hörmət geyim-kecimdədir.

Gülməyin şair sözünə,

Kişi yaxmaz üz-gözünə,

Çirkinəm baxma üzümə,

Gözəlliyim içimdədir.

25 04 2010

SƏN MƏNDƏN UZAQSAN, MƏN SƏNDƏN UZAQ

Sevgilim, gözümün nuru itibdi,

Gözlərim qalıbdı, bir şəmdən uzaq.

Görən bu həyatda suçumuz nədir!

Nə üçün olmuşuq biz, dəmdən uzaq?!

Sən bir xəyaldasan, mən bir xəyalda,

Bununçün gen qaçır, bizdən vüsal da,

Mən dərd ümmanında, batdığım halda,

Sən niyə qalmısan, bəs qəmdən uzaq?

Alsaq qoynumuza, biz sevgimizi,

Məhəbbət də alar, qoynuna bizi,

Necə sevirik ki, bir-birimizi?!

Sən məndən uzaqsan, mən səndən uzaq?!

27 03 2009

İNSANDAN DİKSİNDİM, QULDAN DİKSİNDİM

Şər gəlib xeyirin izindən keçdi,

Küçədən diksindim, yoldan diksindim.

Hər kolun dibində bir tülkü yatır,

Onunçün meşədən, koldan diksindim.

Rüşvət hesabına uzandı dili,

Əydi qarşısında nahaq, adili,

Edəndə qardaşı ,qardaş qatili,

Paradan diksindim, puldan diksindim.

Haqsıza aldanıb haqqı dananda,

Yaxşını yandırıb pisə yananda,

Özü tək bir qulu, kölə sananda,

İnsandan diksindim, quldan diksindim.

BƏS MƏN NİYƏ TƏKƏM ALLAH?!

Ürəklərdə dərd yerinə,

Gül toxumu əkəm Allah.

Tutub nəfsin qarşısına,

Bir gün sərhəd çəkəm Allah.

Mən bilmədən əsdi külək,

Min əzaba dözdü ürək,

Evimizi yıxdı fələk,

Gərək bir də tikəm Allah.

Haqq deyənə oldu qail,

Öz oduna yandı bu dil,

Təklik sənə məxsus deyil?!

Bəs mən niyə təkəm Allah!

08 27 2009

AĞLAMAĞA ÖYRƏNMİŞƏM

Tənha qalan ürəyimi,

Dağlamağa öyrənmişəm.

Külü səpib yaram üstə,

Bağlamağa öyrənmişəm.

Qəlbimi duy sözlərimdə,

Özümü tap izlərimdə,

Yaş dayanmır gözlərimdə,

Ağlamağa öyrənmişəm.

Ağ kağızda şeir kimi,

Sıralanmış sətir kimi,

Çılğın ruhlu şair kimi,

Çağlamağa öyrənmişəm.

05 01 2010

AĞIL VƏ ÜRƏK

Ürək

Zülmət bir gecədə, tənha sevgilim,

Bilmirəm mən niyə, döyünməkdəyəm.

Yenə də mən sənsiz, kədər libasın,

Bürüyüb köksümə, geyinməkdəyəm.

Ağıl

Sevgini dəfn edib, yatsan yaxşıdır,

Var ömrün sevməyə, baxsan nə qədər.

Sovurub gəncliyi, arxada qoyma,

Keçirmə ömrünü, mənasız, hədər.

Ürək

Bir ömür nədir ki, olsa yüz ömür,

Həsr edərəm eşqə, heç düşünmədən.

Sən məndən aslısan, mən səndən deyil,

Düşünə bilmərsən, mən döyünmədən.

Ağıl

Bircə sualıma cavab ver mənim,

Nə üçün sevirsən, axı sən onu?!

Düz deyil bu istək, inan ki, səni,

Uçruma aparır bu eşqin yolu.

Ürək

Hər zaman, sən boş-boş, düşünməkdəsən,

Sən hardan biləsən, məhəbbət nədir.

Yoxdursa məhəbbət, insan canında,

Yaşamaq mənasız, ürək heçnədir.

Ağıl

Sənin yaşadığın, sevgi deyil ki,

Sadəcə yaşanan, ötəri hissdir.

Sənlə birlikdə, dünyaya gələn,

Gözəlliyə olan, tamah, nəfisdir.

Ürək

İnan yanılırsan, düz düşünmürsən,

Ən əziz varlıqdır, gülüm gözümdə.

Onsuz bu həyatda, yaşamaqdansa,

Ən asan bir yoldur, ölüm gözümdə

Ağıl

Ölüm Allah əmri, ölməkdən demə,

Gəl günah işlətmə, gəl günah etmə.

Yaşadan bir eşqin, arxasınca get,

Öldürən sevginin, ardınca getmə.

Ürək

Ağıldan da qabaq, insanda ürək,

Sevgini gözlərdən, bilən deyilmi?!

İndi sən cavab ver, bu sualıma,

Aşiq eşqi üçün, ölən deyilmi?!

Ağıl

Məhəbbətin ilkin, qanunu budur,

Səni sevən kəsi, sevəsən gərək.

Ölməyə dəyərmi, qərarın verib,

Sonra sevgin üçün, öləsən gərək.

Ürək

Sənin düşündüyün bu yolu seçsəm,

Əhdə dönük çıxam, sevməyəm gərək.

Məhəbbət də, ağlın əsiridirsə,

Onda nəyə lazım, insanda ürək.

Ağıl

Onunla bir dəfə, danışmısan heç,

Biləsən ürəyi necədir, nədir.

Bəlkə o sadəcə, şeytan donunda,

Mələyə bənzəyən, bir pərvanədir.

Ürək

Bir dəfə kənardan, onu görməyim,

Mənimçün bir ömrə, dünyaya dəyər.

İlahi gözəllik, vardırsa onda,

Yəqin ki, qəlbi də, üzünə bənzər.

Ağıl

Gəl aldanma onun gözəlliyinə,

İnan, hər şey demək, deyil gözəllik.

Gözəlliyin əymədiyi qaməti,

Əyib qarşısında ağılla, bilik.

Ürək

Mən belə sözləri, çox eşitmişəm,

Sanma ki, mənimçün bu bir qayədir.

Bunlar sənin kimi, düşünənlərin,

Uydurduğu nağıl, bir hekayədir.

Ağıl

Daha söyləməyə sözüm yox sənə,

Bilirəm yolundan, dönməyəcəksən.

Toruna düşərək, bu məhəbbətin,

Allahı çoxdandır, tərk etmisən sən.

Ürək

Sənin sözündəki, həqiqət qədər,

Mənim ürəyimdə , məhəbbət vardır.

Amma, nə edək, səni yaşadan mən,

Məni yaşadansa, sevgidir, yardır.

Ağıl

Əsiri olmuşam, hissinin sənin,

Almısan əlimdən, qərarımı sən.

Qanun sənindir, qərar sənindir,

Daha bundan sonra, özün bilərsən.

Ürək

Sevgimin məhkumu olsam da belə,

Bu yolda qərarım, qətidir qəti.

Ruhum nə qədər ki, yaşayacaqdır,

Qoruyacam mən də, bu məhəbbəti.

10 03 2009

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət

Universitetinin Sənətşünaslıq fakültəsi

Teatrşünaslıq ixtisasının III kursunda təhsil alan

tələbə yoldaşlarıma həsr etdiyim hekayə

SƏYAHƏT

(Hekayə)

Tələbəlik illərin,

Biz şən keçirmək üçün.

Uşaqlarla yığışdıq,

Qərara gəldik bir gün.

Müxtəlif fikirləri,

Bir yerdə təhlil etdik.

Çoxluğun istəyilə,

Nəhayət bunu seçdik.

Pul yığıb hər birimiz,

Əlli manatdan cəmi.

İcarəyə götürdük,

Özümüzə bir gəmi.

Birinci kursun sonu,

Nöqtə qoyduq bir ilə.

Biz gəmiyə yığışdıq,

On altı nəfər ilə.

Gəmini sürmək üçün,

Başı çıxan az oldu.

Kapitan seçimimiz

Dostumuz Ayaz oldu.

Taleh kitab oxuyur,

Marağı birdir onun,

Yarıdan keçib artıq,

Lermontovun Demonun.

Xəyalənin yenə də,

Bircə budur diləyi

Uşaqlarla yığışıb,

Şəkil çəkmək istəyi.

Lətifələr söylədi,

Elşən həminki günü.

Hər bir kəsin üzünə.

Bəxş etdi təbəssümü.

Ömrümüzün nə gözəl,

Yaşadıq bir qismini,

Fırça ilə bizlərin,

Ülkər çəkdi rəsmini.

Vaqif söhbət edirdi,

Mənalı bir çıxışla.

Dənizə boylanırdı.

Sevgi dolu baxışla.

Bu maraqlı anları,

Çoxdandır istəyirdi.

Ruhiyyə olanları.

Kənardan izləyirdi.

Külək dalğanı qovur,

Mən baxıram həvəslə.

Tapıb ilham pərisin,

Yazıram ülvi hislə..

Konturun azlığından,

Çıxdı özündən təmiz.

Qızdan gələn mesaja,

Cavab yazırdı Əziz.

Həzin külək səsindən,

Vüqar gəldi həvəsə.

Gədəbəydən söz açdı,

Maraq ilə hər kəsə.

Kim razı olmaz axı,

Fizzə tək nəvəsindən.

O sitatlar gətirir.

Sevimli nənəsindən,

Natiqin natiqliyi,

Göstərir nicatını.

Yenə təhlil edirdi,

Türkiyə həyatını.

Hüquqşunas olmağı,

Arzu edirdi Rəşad.

Hüquq sahəsində o,

İstəyir qoysun bir ad.

Orxansa iqra ilə,

Qatırdı öz başını.

Axı yadına düşür,

Bəyaz üzlü maşını.

Seyr edir təbiəti,

Namiq necə maraqla.

Bu mənalı səfəri,

Keçirdik təmtəraqla.

Sahil elə hey baxır,

Görə bilmir sahili.

Günəş qürub eyləyir,

Gecə düşür maili.

Göz gözü görməz oldu,

Zülmət çökdü bir anda.

Bu olanlar yuxuymuş,

Yaşamışam röyamda.

Bir də çətin ki görəm,

Yuxularda səyahət.

Tələbə hekayəsi,

Burda bitdi nəhayət.

VİRTUAL TANIŞLIQ

Oglan

Sizə icazənizlə,

Sözüm var bircə kəlmə.

Tanış olmaq istərəm,

Sizin kimi gözəllə.

Qız

Sevgi odur fəsillər,

Dəyişəndə solmasın.

Ciddidirsə niyyətin,

Niyə də ki olmasın.

Oğlan

Gəl biz elə sevişək,

Dünya nura boyansın.

Bircə kəlmə hə söylə,

Yatan bəxtim oyansın.

Qız

Fırladır dünya bizi,

Hər an ömürdən gedir.

Mənlə tanış olmağa,

Səni cəlb edən nədir.

Oğlan

Bir günlük tanışlıqdan,

İnan çox yorulmuşam.

İlk baxışdan mən sənin,

Nikinə vurulmuşam.

Qız

Nikdəki öz adımdı,

Dillərdə bir dastanam.

Şıltaq, dəcəl bir qızam,

Mən balaca Aydanam.

Oğlan

Qızlarda gözəlliyi,

Sevirik hər birimiz.

Yəqin adınız kimi,

Özünüz də gözəlsiz.

Qız

Yaranışdan Allahın,

Gözəldir hər bəndəsi.

Ürəkləri sevənin,

Eşidilir haqq səsi.

Oğlan

Mən görmək istəyərdim,

Sizi tez bir zamanda.

Qəlbiniz də gözəlmiş,

Duydum bunu bir anda.

Qız

Tez olsa da qərarın,

Mən razıyam sənlə.

Nömrəmi verdim sənə.

Sabah danış mənimlə.

Oğlan

Sabah elə bu vaxtı,

Zəngimi gözləyərsən.

Harda görüşəcəyik,

Onu mənə deyərsən.

Qız

Yaşayacam mən görən.

O sevinci o ünü.

Sevə-sevə gözlərəm,

Sabahki gözəl günü.

Oğlan

Qismət olsa bu bizə,

Sabah görüşəcəyik.

Bağışla getməliyəm.

Sabahadək hələlik.

Qız

Mən də gedirəm daha,

Evdə heç kim bilməsin.

Fikrimiz alt-üst olar.

Atam gəlib görməsin.

Oğlan

Yuxu gəlmir gözümə,

Necə olacaq sabah.

Xəyalımda qurduğum,

Bəlkə odur ay Allah.

Qız

Ağlıma gəlməzdi heç,

Tanış olduq biz necə.

Bəlkə düşünsəm bir az,

Yuxuma gələr gecə.

Oğlan

Nömrəni yığmalıyam,

Vaxtıdı zəng etməyin.

Məqamı çoxdan gəlib.

O görüşə getməyin.

Qız

O zəngi gözləyirəm,

Qəlbim həyəcan dolu.

İndi bildim nə qədər.

Çətindir eşqin yolu.

Oğlan

Salam necəsən canım?!

Yəqin tanıdın məni.

Dünən görmək istədik.

Sən məni, mən də səni.

Qız

Unutmaq olarmı heç,

Sevdiyin bir nəfəri.

Harda görüşəcəyik,

Düşünmüşəm o yeri.

Oğlan

Buyur yerini söylə,

Həvəslə gəlim ora.

Dünyanın xoşbəxtiyik,

Biz daha bundan sonra.

Qız

Sahildə, Milli parkda,

Gözləyəcəm mən səni.

Düz saatın yanında,

Görəcəksən sən məni.

Oğlan

Bakımızın ən gözəl,

Yerlərindən biridir.

Biz gənclər üçün ora

Sevənlərin yeridir.

Qız

Həyatın burda görür,

Dənizi çox sevən kəs.

Darıxdım bir anlığa.

Bura gəlməyə tələs.

Oğlan

Ruhum sənin yanında.

Cismim ilə burdayam.

Gəlir həsrətin sonu,

Tez bir vaxtda ordayam.

Qız

Dil dodağım quruyub,

Çırpınır bu ürəyim.

Məni görəndən sonra,

Olacaqmı gərəyim.

Oğlan

Ümidliyəm nədənsə.

Ürəyim çox rahatdı.

Bəlkə də Allah onu,

Mənim üçün yaratdı.

Qız

Özümə gəlim bir az,

Hardasa gələr indi.

Qəlbindəki sevinci,

Mənimlə bölər indi.

Oğlan

Gör bu alın yazımı,

Allahım necə yazdı.

Demə tanış olduğum.

Bir vaxt sevdiyim qızdı.

Qız

Sənə olan bu sevgim,

Bitmədi heç vaxt bitməz.

Sevəni ayırmağa.

Ayrılıq gücü yetməz.

Oğlan

Qismətə bax sevgilim,

Biz yenə də qovuşduq.

İtirdik sonda tapdıq,

Bu həsrətdən sovuşduq.

Qız

Yaşamağı bacarmaz,

Ürək itirsə tənin.

Kim nə deyir qoy desin.

Sən mənim ol mən sənin.

Oğlan

Sənə olan sevgimə,

Ailəmiz pis demir.

Axı mənim olmanı,

Sənin atan istəmir.

Qız

Bu sevginin həyatda,

Çarəsi budur ancaq,

Sevirsənsə sən məni,

Gəl qoşulub biz qaçaq.

Oğlan

Ciddi düşünmək gərək,

Bu barədə bir qədər.

Oğlan müqəssir deyil,

Qız razıdırsa əgər.

Qız

Öz seçimimdir mənim.

Deyəcəyəm hər yerdə.

Yetər ki ay sevgilim.

Ayrılmayaq biz birdə.

Oğlan

Sevgimiz olan yerdə.

Bizi ayırmaz ölüm.

İnanıram mən sənə,

Ümidim sənsən gülüm.

Qız

Gəl birlikdə qoruyaq,

Ürəkdə məhəbbəti.

Bu eşq əbədi olsun,

Olmasın müvəqqəti.

Oğlan

Sevənlər bilsin gərək,

Bu həyatın dadını.

Biz də yazaq tarixə,

İki gəncin adını.

Qız

Oyanmışıq yuxudan,

Yatdığmıız bəs deyil?!

İnsana həyat verən,

Onu sevən kəs deyil?!

Oğlan

Sənə həsrət qalacaq,

Sənsiz keçən hər ilim.

Dünyada ən dəyərli,

Varlığımsan sevgilim.

Qız

Qanad açıb quş kimi,

Biz uçuruq səmaya.

İndi biz də gedirik,

Sevgi dolu dünyaya.

DƏNİZ VƏ DƏNİZÇİ

Dənizçi

Xəzərim, ay xəzərim,

Niyə belə susmusan?

Dalğan dəymir sahilə,

Dayanmısan, durmusan.

Dəniz

Dərdim elə ağırdı,

Tab gətirməz ürək də.

Tərpətməyə köksümü,

Təsir etmir külək də.

Dənizçi

Bilirəm dərdin nədir,

Mənim də dərdim böyük.

İkimizdə eynidir,

Belimizə düşən yük.

Dəniz

Məndə olan dərd deyil,

Bir sağalmaz yaradır.

Xəyallarım sahilsiz,

Qanım yaman qaradır.

Dənizçi

Gəl yaranı sarıyım,

Qaysaq tutsun bir anda.

Səni qəmli görəndə,

Kədərlənir insan da.

Dəniz

Qar düşüb dağlarına,

Sən get ərid o qarı.

Yara sarıya bilsən,

Öz yaranı get sarı.

Dənizçi

Xətrinə dəydimsə mən,

Bağışla ki, bilmədim.

Yalnız bu yolda sənə,

Kömək etmək istədim.

Dəniz

Tanrıdır bağışlayan,

Bağışlamaz o səni.

Çünki vətəni verdin,

Məhv etmədin düşməni.

Dənizçi

Dəniz rəngi göy olar,

Sənin rəngin qaradır

İndi bildim səbəbin,

Torpaq bunu yaradır.

Dəniz

Sus, vətənin yoxikən,

Danışmağa yox haqqın.

Siz çox sürünəcəksiz,

Arxasınca nahaqqın.

Dənizçi

Utanıram dənizim,

Mən üzünə baxmağa.

O vaxt gücüm olmadı,

Sahib çıxam torpağa.

Dəniz

Bulud vətəni sardı,

Açılmadı sabahı.

Yurdunu azad elə,

At üstündən günahı.

Dənizçi

Adımıza min cürə,

Düşmən ləkələr yaxdı.

Hər işin bir sonu var,

Hər şeyin də bir vaxtı.

Dəniz

Gözləməyin yeri yox,

İndi daha vaxtıdır.

O vaxt nahaqqın idi,

Daha haqqın taxtıdır.

Dənizçi

Ölümdən qorxmuruq biz,

O bir alın yazısı.

Nahaq qan tökməməkdir,

Bu millətin arzusu.

Dəniz

Bilirəm qan axıtmaq,

Yaraşmaz islamıma.

Amma qorxu düşməli,

Düşmənlərin canına.

Dənizçi

Düşmən yaxşı tanıyır,

Bizim böyük ordunu.

Hər azəri övladı,

Sevir doğma yurdunu.

Dəniz

Həmrəy olun yağını,

Qarabağdan qovmağa.

Var gücünüz düşməni,

Əlinizlə boğmağa.

Dənizçi

Qatil olsaq da belə,

Etməliyik biz bunu.

Daha ayırd edirik,

Qurd ilə biz quzunu.

Dəniz

Bilirəm gecikmisiz,

Bu yolda siz bir qədər.

İrəli addımlayın,

Vaxtı verməyin hədər.

Dənizçi

Ağıl tələb olunur,

Hər baş verən savaşda.

Qələbə çalmaq üçün,

Gərək güc olsun başda.

Dəniz

Bu iş zarafat deyil,

Bir taleyin həllidir.

Türk övladının gücü,

Hər bir xalqa bəllidir.

Dənizçi

Biz torpaq sahibiyik,

Düşmənimizsə oğru.

Məqsədə çatmaq üçün,

Gedirik ona doğru.

Dəniz

Ümidliyəm bu yolda,

Düşmən məğlub olacaq.

Erməni üzərində,

Yurdum zəfər çalacaq.

Dənizçi

Səbr elə uzaq deyil,

O sevincin nidası.

Bürüyəcək dünyanı,

Qalibiyyət sədası.

Dəniz

Dualarım sonsuzdur,

Görmək üçün o günü.

Görəcəyik birlikdə,

O sevinci o ünü.

Dənizçi

Bizim amalımız bir,

Əqidəmiz birdi ki.

Bilinmir dünya işi,

Bu dünyamız sirdi ki.

Dəniz

Bir an da unutmayın,

Əğyarın əqidəsin.

Fəth etmək çox çətindir,

Azadlığın zirvəsi.

Dənizçi

Bütöv deyilsə vətən,

Demək azad deyilik.

Bu yalan azadlığa,

Əbəs yerə nayilik.

Dəniz

Sözündə həqiqət var,

Razıyam bu sözünlə.

Nəhayət hesablaşdın,

Bir az özün-özünlə.

Dənizçi

Bizlə hesablaşmağa,

Heç kimin gücü yütməz.

Allaha üz tutanın,

Zəhməti heçə getməz.

Dəniz

Zülməti tərk edərsiz,

Doğru yolla getsəniz.

Qələbə bizim olar,

Haqqı bayraq etsəniz.

Dənizçi

Ümid yaşadır bizi,

İnsan ölər ümidsiz.

Haqqın keşikçisiyik,

Göydə Allah yerdə biz.

Dəniz

Torpağım azad olsa,

Yeni günəş doğaram.

Bu dünyanın dərdini,

Öz dəryamda boğaram.

Dənizçi

Sənlə bu söhbətim,

Güc gətirdi qoluma.

Bundan sonra heç bir kəs,

Çıxa bilməz yoluma.

Dəniz

Yollarında ilan var,

İlanların kəs kökün.

Öldürməkçün ilanı,

Başlarında qan tökün.

Dənizçi

Əyiləcək yaxında,

Yağıların o qəddi.

Tərk edəcəklər bir gün,

Bizə məxsus sərhəddi.

Dəniz

Dünyaları dar olar,

Bizləri xor görsələr.

“İt hürər karvan keçər”,

Nə mənası hürsələr.

Dənizçi

Düşmənə səslənirəm,

Yaxşı eşit yaxşı bil.

Zaman həmin zamandır,

İnsan o insan deyil.

Dəniz

Ən uca zirvədədir,

İnsanların dahisi.

Bizim tərəfimizdə,

Həqiqətin hamisi.

Dənizçi

Ölkəmiz iqtisadi,

Məsələmiz siyasi.

Biz Allaha yaxınıq,

Düşmən Tanrıya asi.

Dəniz

Hər yaranan bəndənin,

Tanrı eşidir səsin.

Bu vergüllü savaşın,

Qoyacağıq nöqtəsin.

17 03 2009

BAYATILAR

Əziziyəm əl əyir,

Vüsal dərdi ələyir,

İnsan var əl düzəldir,

İnsan da var əl əyir.

Əzizim sinə dərdi,

Dərd özü sinə dərdi,

Hər bir yara sağalar,

Sağalmaz sinə dərdi.

Əzizim yol daş olar,

Yol çınqıl, yol daş olar,

Namərddə qeyrət olmaz,

Mərd, mərdlə yoldaş olar.

Əzizim dərdə məni,

Gül deyir dər də məni,

Sevgimə nöqtə qoydun,

Sən atdın dərdə məni.

Əzizim təknəsini,

Tapmadım təknə sini,

Eşq ümmanda qərq edib,

Könlümün təknəsini.

Əziziyəm qovurar,

İnsafsızı qovur ar,

Oda düşən dən kimi,

Hicran qəlbi qovurar.

Əzizim Laçın haqqı,

And yerim Laçın haqqı.

Bir gəncin ömrü qədər,

Tapdaqdır Laçın haqqı.

ROMA XOSROV

YAT,YUXUNA QONAQ GƏLİM

Naşir: Rafiq Xan-Sayadoğlu

Bədii redaktor: Adil Cəfakeş

Texniki redaktor: Elvin Qulami

Dizaynerlər: İradə Əhmədova, Ceyhun Əliyev

Operator: Rübabə Vəliyeva

Yığılmağa verilmişdir:18.10.2010

Çapa imzalanmışdır: 30.11.2010

Tiraj 500: ş.ç.v. 10

“MBM” MMC mətbəəsində çap olunmuşdur.

MÜƏLLİFLƏ ƏLAQƏ:

055 702 36 32